Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 278 (8005) BAZAR, 9 dekabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





## "Elektron hökumət": operativliyə, şəffaflığa və məmnunluğa keçid

Müasir dünya düzənində dövlətin demokratik dəyərlərinin inkişafını özündə əks etdirən amillərdən biri "Elektron Hökumət"in (Government) qurulması və inkişaf etdirilməsidir. Bu, əslində dövlətlə vətəndaş arasında elə münasibətlər sistemidir ki, istənilən şəxs birbaşa dövlət qurumuna getmədən, növbə gözləmədən, bürokratik maneələrdə sıxılmadan, vaxt itirmədən internet resursları vasitəsi ilə müraciət edir və onun üçün zəruri sayılan məlumatları, arayışları sürətlə əldə edir.

Eyni zamanda bu sistemlə nəinki Azərbaycan vətəndaşlarına, həm də ölkə ərazisində yaşayan xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə də elektron xidmətlər göstərilir. Yaxşı yadımdadır ki, bir neçə il əvvəl Bakıda gecə dünyasını qəfildən dəyişən türk mühəndisinin cənazəsini cəmi 6 saatın ərzində vətəninə yola saldılar. Təsadüfdən elə eyni vaxtda dostum Andrey Redkin Almaniyada vəfat edən anasını Moskvaya gətirmək üçün sənəd hazırlayırdı və... O, anasını Moskvada torpağa tapşıran gün mərhumun artıq qırxı idi... Sözümün canı odur ki, Avropa dəyərləri heç də həmişə qüsursuz olmur. Orda da ciddi problemlərə rast gəlmək mümkündür. Bu baxımdan Azərbaycanda yaradılan "Elektron hökumət"i bürokratiyadan şəffaflığa açılan yol kimi qiymətləndirmək lazımdır.

Məhz bu "hökumət"də dövlət orqanlarına müraciət edən hər kəs özü ilə məmur arasındakı bürokratik ünsiyyət maneələrini asanlıqla dəf edir, münasibətlərini sadələşdirməklə yanaşı, həm də saflaşdıra bilir. Dövlət orqanları tərəfindən elektron xidmətlərin geniş tətbiqi vətəndaş məmnunluğunun artmasına səbəb olur. Ölkəmizdə "Elektron Hökumət"in formalaşdırılması beynəlxalq təcrübəyə əsaslanır. Prezidentin "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında sərəncamı, "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli fərmanı və digər normativ hüquqi aktlarla "Elektron Hökumət"in fəaliyyəti üçün hüquqi baza yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi bu sahədə görülən işlərin əlaqələndiricisi olaraq "Elektron Hökumət"in formalaşması üzrə digər dövlət orqanları ilə sıx əlaqə saxlayır və müvafiq infrastruktur yaradır. Artıq elektron imzaların istifadəsi üçün Milli Sertifikasiya Xidmətləri Mərkəzi yaradılmış, dövlət qurumlarının informasiya sistemləri arasında informasiya mübadiləsini təmin edən infrastruktur qurulmuş, "Elektron Hökumət" portalı istifadəyə verilmişdir.

Dövlət idarəçiliyində müasir texnologiyaların tətbiqinin genişləndirilməsi fəaliyyətin səviyyəsini yüksəltməklə yanaşı, onlardan istifadə imkanlarını da sadələşdirir. Eyni zamanda istifadəçinin sorğusuna əsasən məlumatların axtarılmasına və əldə edilməsinə sərf olunan vaxt minimuma endirilir. İstifadəçi ölkənin istənilən yerində təqdim edilən bütün elektron xidmətlərdən yararlana bilir.

Elektron xidmətləri göstərən təşkilatların siyahısına demək olar ki, əksər dövlət qurumlarının - nazirliklərin, komitələrin və digər təşkilatların adları daxil edilmişdir. Bu siyahını nəzərdən keçirəndə həqiqətən də ölkədə "Elektron hökumət"in yüksək səviyyədə yaradıldığının şahidi olursan.

Hazırda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi 39, Mərkəzi Seçki Komissiyası 7, Vergilər Nazirliyi 65, Dövlət Gömrük Komitəsi 13, Ədliyyə Nazirliyi 24, Səhiyyə Nazirliyi 31, Ekologiya və Təbii Sərvətlər Nazirliyi 18, Dövlət Dəniz Administrasiyası 17, Kənd Təsərrüfatı Nazirliyi 22, Əmlak Məsələləri Dövlət Komitəsi 35, Dövlət Miqrasiya Xidməti 11 adda elektron xidməti göstərir.

Göründüyü kimi, xidmətlərin ən geniş siyahısı Vergilər Nazirliyinə məxsusdur. Bu sıraya "ASAN imza" istifadəçi İD-sinin dəyişdirilməsi, bəyannamələrin vergi orqanları tərəfindən hazırlanması və təsdiq edilmək üçün vergi ödəyicilərinə göndərilməsi, Çağrı Mərkəzi vasitəsilə "Sadələşdirilmiş verginin bəyannaməsi"nin təqdim edilməsi, fiziki şəxsin vergi uçotundan çıxarılması, gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə ərizələrin qəbulu, hazır sənəd barədə məlumatın verilməsi, vergi bəyannamələrinin (sadələşdirilmiş vergi bəyannaməsi istisna olmaqla), hesabat və vergi öhdəliyinin yaranmaması haqqında arayışların vergi orqanına "onlayn" təqdim edilməsi, "Vergi partnyorluğu Sazişi"nin bağlanılması üçün ərizələrin qəbulu kimi onlarca digər xidmət növləri daxildir. Yəni vətəndaş bu əməliyyatları həyata keçirmək üçün heç yerə getmir, vaxt itirmir, yalnız elektron müraciət etməklə problemlərini yoluna qoyur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 28 adda müxtəlif elektron xidmətləri həyata keçirir.

Ardı 3-cü səh.



Azərbaycan müasir dünya düzənində bütün dövlətlərlə ikitərəfli qarşılıqlı münasibətlərin dinamik inkişafına səy göstərən, dostluğa, qardaşlığa söykənən və bütün əlaqələrin sülh məcrasına yönləndirilməsinə önəm verən ölkədir. Biz heç bir ölkəyə qarşı iqtisadi və hərbi üstünlüklərin əldə edilməsi naminə təzyiq göstərmirik, siyasi bloklara qoşulmuruq, iqtisadi sanksiyalar tətbiq etmirik. Hətta işğalçı Ermənistana da səbir və təmkinlə izah edirik ki, özünü məhkum etdiyi blokadanın çıxış yolu işğal altındakı torpaqların tərk edilməsindən keçir.

## Rusiya Azərbaycanı seçir

### Bunun yaxın və uzaq tarixə söykənən əsasları var

Azərbaycan diplomatik münasibətlər sistemində neytrallığını qoruyur, qonşuları arasında və beynəlxalq miqyasda sülhün vasitəçisi kimi çıxış edir, münasibətlərində gərginlik yaranan Rusiya və ABŞ kimi iki super dövlətin yüksək ranqlı hərbi məmurlarının ikitərəfli danışıqlarına neytral ölkə kimi evsahibliyi edir. Həmçinin Rusiya-Türkiyə münasibətlərinin ağır dönəmində barışdırıcı missiyanı boynuna götürərək diplomatik məharət tələb edən bu missiyanın öhdəsindən gəlib. Yaxın Şərqdə çoxlarının, o cümlədən erməni lobbisinin qızışdırmağa və hətta müharibəyə çevirməyə çalışdığı sərt qarşıdurmanın səngiməsində vacib rol oynayıb.

"Qədimliyi", "dövlətçilik ənənələri", "müdrikliyi", hamıdan hər şeydə "birinci" olması ilə öyünən Ermənistan isə xarici siyasətində özünəməxsus "qucaq" və "qundaq" diplomatiyasına üstünlük verir. Yaşmaq vurub, abırlı gəlin kimi Rusiyaya üzdə sədaqət andı içsə də, gizlicə "altdan əlvan geyinib" Qərbdə "siyasi məşuqları" ilə şam işığında "gecə görüşləri"nə gedir. Rusiya-Türkiyə münasibətlərinin kritik məqamında çaldıqları müharibə havasında heç kimin oynamayacağını və quyruqlarının tapdandığını başa düşən ermənilər göz qırpımında "qucaq" diplomatiyasına keçir. ABŞ-la Türkiyə münasibətlərinin qəlizləşməsindən ildırım sürəti ilə yararlanan erməni diplomatiyası bütün supergüclərin məşuquna çevrilir.

Ardı 3-cü səh.

## Azərbaycan iqtisadiyyatında fundamental keyfiyyət dəyişiklikləri

### Son 15 il ölkəmizin müstəqillik tarixinin ən uğurlu və ən şanlı səhifəsidir

Dünya Bankı tərəfindən tərtib olunmuş "Doing Business-2019" reytinqində Azərbaycan iqtisadiyyatı əvvəlki dövrlə müqayisədə 32 pillə irəliləyərək 25-ci sırada yer almış lider islahatçı ölkə kimi ən çox islahat aparan ilk onluğa daxil olmuşdur. Hesabatda dünyanın 190 ölkəsi arasında müəyyən edilmiş reytinqdə belə sürətli irəliləyişin əsas səbəbi kimi biznesin həyata keçirilməsi prosesinin sadələşdirilməsi istiqamətində ölkəmizdə rekord sayda islahatların aparılması göstərilmişdir. Qeyd etmək lazımdır ki, bu göstəriciyə görə, ölkəmiz MDB məkanında birinci olmaqla yanaşı, Yaponiya, Fransa, İtaliya, İsveçrə, Türkiyə və Çin kimi ölkələri də üstələyə bilmişdir. Bunlarla yanaşı, Dünya İqtisadi Forumunun 2017-ci il üçün hazırladığı "İnklüziv inkişaf indeksi" hesabatında inkişaf etməkdə olan 80 ölkə arasında ölkəmiz 3-cü yerə yüksəlmişdir. Qlobal rəqabət qabiliyyəti göstəricisinə görə ölkəmiz dünyanın 137 ölkəsi arasında 35-ci sırada qərarlaşmış, MDB məkanında doqquz ildir ki, lider mövqeyini qorumuş və "G-20"yə üzv olan 9 ölkəni - İndoneziya, Rusiya, Hindistan, İtaliya, Meksika, Türkiyə, Cənubi Afrika Respublikası, Braziliya, Argentinanı üstələmişdir. Bu dövr ərzində Azərbaycanın iqtisadi və sosial inkişafında çox mühüm kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermiş, əhalinin həyat səviyyəsi xeyli yüksəlmişdir. Şübhəsizdir ki, bütün bu uğurların və misilsiz nailiyyətlərin arxasında son on beş ildə həyata keçirilən əzəmətli işlər dayanır.

Ardı 2-ci səh.

## Zəhmətin bal kimi bəhrəsi

### Son 9 ildə Azərbaycanda arı ailələrinin sayı 1.9, bal istehsalı isə 2.2 dəfə artıb

Aqrar sektorda keçirilən islahatların əsas məqsədi kənd təsərrüfatının bütün sahələrinin inkişafına nail olmaqdır. Amma kənd təsərrüfatı sahələri genişdir və hər bir sahə özü də bir neçə yerə bölünür. Təkcə heyvandarlıqda və əkinçilikdə neçə sahə var, hamısı da bir-birindən vacib.

Bu həm də o deməkdir ki, aqrar sektorda hər bir sahənin inkişafında dövlət dəstəyinə ehtiyac var. Belə sahələrdən biri də arıçılıqdır.

Azərbaycanda arıçılığın tarixi qədimdir. Üstəlik hələ qədimlərdən bizdə olan arı növləri istehsal etdiyi məhsulun keyfiyyətinə görə də fərqlənib. Buna görə də ötən əsrin əvvəllərində Azərbaycanda yetişən arı növləri Amerikaya aparılıb.

Ardı 3-cü səh.



Bu gün Ermənistanda növbədənkənar parlament seçkiləri keçiriləcək. Başa çatan seçkiqabağı kampaniya demokratik tələblərdən kifayət qədər uzaq olub və hər şey əsas etibarı ilə baş nazirin vəzifələrini icra edən Nikol Paşinyana bağlı qüvvələrin qələbəsinə hesablanıb. Bu səbəbdən də seçkilərin demokratik şəraitdə baş tutması ciddi şübhə doğurur. Seçkilərə qatılanlar arasında bu fonda Nikol Paşinyana bağlı olan "Mənim addımım" alyansının səslərin daha çoxunu qazanması gözlənilir. Bura hazırkı hökumətin üzvləri, ötən yaz dinc küçə etirazları nəticəsində hakimiyyətə gəlmiş hərəkatın tərəfdarları daxildir.



## Ermənistan parlament seçkilərinə total saxtakarlıq və repressiyalarla gedir

### Bu seçkilər də, əvvəlkilər kimi, siyasi şou olacaq

Silahlı qruplaşmanın partiyası da seçkilərə qatılır

Əsas müxalifət qismində çıxış edən Serj Sarkisyanın sədri olduğu Respublika Partiyasının isə bu dəfə qanunverici orqanda daha az səslə təmsil olunması gözlənilir. Partiyanın namizəd siyahısına keçmiş müdafiə naziri Vigen Sarkisyan rəhbərlik edir. Vigen Sarkisyan bildirir ki, Respublika Partiyasının məqsədi seçkidə ikinci olmaqdır, çünki indi bu partiya Ermənistanın yeganə həqiqi müxalifət qüvvəsidir. Amma Paşinyan və müttəfiqləri Respublika Partiyasının parlamentdə hər hansı yer qazana biləcəyinə şübhə etdiklərini bildirirlər. Ermənistanın keçmiş prezidenti və keçmiş baş naziri Serj Sarkisyan isə Respublika Partiyasının namizədləri içində deyil.

Ardı 6-cı səh.

## Virtual ensiklopediya

### Vikipediya qlobal məlumat bazasına və sosial şəbəkəyə çevrilib

Daim yeni məlumat axtarışındayıq. Ancaq müraciət etdiyimiz mənbənin də mötəbərliyi mütləqdir. Ona görə də bütün dünyada insanların ilkin mənbə olaraq müraciət etdiyi vikipediyanın mövqeləri daha da möhkəmləndirilir. Vikipediya istənilən mövzuda müzakirə aparmaq, bildiklərini paylaşmaq, məsləhət almaq, yeniliklərdən xəbərdar olmaq və milyonlarla insanın yaradıcılığını izləmək, yaşadığın ölkəni tanıtmaq üçün asan vasitədir. Ən əsası isə artıq internetin ən böyük mənbə və məlumat bazasına çevrilir.




Ardı 5-ci səh.

# Azərbaycan iqtisadiyyatında fundamental keyfiyyət dəyişiklikləri

## Son 15 il ölkəmizin müstəqillik tarixinin ən uğurlu və ən şanlı səhifəsidir

*Əvvəli 1-ci səh.*

### Özünəməxsus iqtisadi inkişaf modeli

Mübaliğəsiz demək olar ki, bu 15 il Azərbaycan Respublikasının müstəqillik tarixinin ən uğurlu və ən şanlı səhifəsidir. Bu dövrün nailiyyətləri yalnız iqtisadi, sosial və mədəni sferaların sürətli inkişaf ilə deyil, həm də cəmiyyət həyatının istisnasız olaraq bütün sahələrini əhatə edən əsaslı islahatlar, institusional dəyişikliklər və innovasiyalara əsaslanan səmərəli dövlət idarəçiliyi sisteminin yaradılması ilə səciyyələnir. 2003-cü ildən başlayaraq həyata keçirilən uğurlu dövlət siyasəti nəticəsində ölkəmiz malik olduğu resurslardan, geosiyasi və geoiqtisadi üstünlüklərdən bacarıqla istifadə edərək, dünya iqtisadiyyatına və dünya birliyinə milli maraqların prioritetliyi əsasında ən rasional şəkildə inteqrasiya olunmuş, hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşmasına nail olmuş, sosialyönümlü bazar iqtisadiyyatı modelinə keçidi tam başa çatdırmışdır. Təbii ki, bu dövr ərzində Azərbaycanın keçdiyi yol və əldə etdiyi uğurların miqyası, çəkisi və əhatə dairəsi o qədər geniş və çoxşaxəlidir ki, onların ən qısa xronologiyasını belə bir məqalədə əks etdirmək çox çətindir. Hesab edirik ki, bu dövrdə baş verən bütün proseslərin, aparılan siyasətin, qazanılan uğurların istər nəzəri-metodoloji cəhətdən, istərsə də sosial-iqtisadi, ictimai-fəlsəfi, hüquqi və dövlətçilik praktikası baxımından hərtərəfli və sistemli elmi araşdırılması olduqca vacib və əhəmiyyətlidir.

Əvvəlcə bu dövrün ən mühüm nailiyyəti kimi ulu öndər Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsi və onun müasir dövrün tələb və çağırışlarına, eləcə də dünyada baş verən qlobal proseslərə müvafiq olaraq keyfiyyətcə təkmilləşdirilməsi xüsusi qeyd olunmalıdır. Prezident İlham Əliyev tərəfindən son 15 ildə aparılan düşünülmüş, qətiyyətli, uzaqgörən, çevik və praqmatik siyasət nəticəsində ölkəmizin milli maraqları və təhlükəsizliyi tam təmin edilmiş, ictimai-siyasi sabitlik bərqərar olunmuş, iqtisadiyyatın dinamik inkişafına nail olunmuşdur. Bu dövr ərzində ölkəmizdə müasir tələblərə, minilliyin çağırışlarına, qarşıya qoyulan strateji vəzifələrə cavab verən səmərəli dövlət idarəçiliyi sistemi yaradılmış və onun beynəlxalq nüfuzu, siyasi çəkisi xeyli yüksəlmişdir. Bu 15 ildə dövlət müstəqilliyimiz daha da möhkəmlənmiş, sözün tam mənasında əbədi və dönməz xarakter almışdır. Bu gün Azərbaycan həm iqtisadi, həm də siyasi cəhətdən tam müstəqil bir dövlətdir və heç kimdən asılı olmayaraq, öz milli maraqlarına uyğun siyasət həyata keçirmək iqtidarındadır. Bu da son 15 ildə əldə etdiyimiz ən böyük uğur və dəyər kimi qiymətləndirilməlidir. Azərbaycan öz dövlətçilik tarixində heç vaxt indiki qədər müstəqil olmamışdır.

Ulu öndər Heydər Əliyevin formalaşdırdığı milli iqtisadi inkişaf modeli bu dövr ərzində daha da təkmilləşdirilərək ölkəmizin sosiai-iqtisadi həyatının bütün sahələrinin dayanıqlı və davamlı inkişafında özünün məntiqi nəticəsini tapmışdır. Dünya ölkələrinin sosial-iqtisadi inkişaf modellərinin mütərəqqi cəhətləri ilə yanaşı, ölkəmizin tarixən formalaşmış maddi və milli-mənəvi dəyərlərini, təbii-coğrafi amilləri və müqayisəli üstünlüklərini, çoxvektorlu geosiyasi və geoiqtisadi maraqlarını özündə ehtiva edən bu eklektik model milli iqtisadiyyatımızda yeni rəqabət faktorları və rəqabət üstünlükləri yaradaraq özünəməxsus iqtisadi inkişaf kursunu formalaşdırmışdır. İqtisadi inkişafımızda alternativi olmayan bu model azad iqtisadi siyasətin və real bazar münasibətlərinin bütünlüklə qərarlaşmasına şərait yaradan liberalizmlə, iqtisadiyyatın dövlət tərəfindən düşünülmüş şəkildə tənzimlənməsini təmin edən institusional yanaşmaların optimal sintezinə əsaslanaraq, konstitusiyamızda təsbit edildiyi kimi, həm azad sahibkarlığa, həm də sosialyönümlü iqtisadiyyatın formalaşmasına tam təminat yaratmışdır. Ölkəmizdə sosialyönümlü bazar iqtisadiyyatı modelinin xarakterinə uyğun olaraq formalaşdırılmış mülkiyyət və bölgü münasibətləri, sahibkarlıq ənənələri, kompleks bazar institutları və infrastrukturlar, eyni zamanda iqtisadiyyatın effektivliyinin və rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədilə həyata keçirilən sistemli islahatlar, dövlət və sahibkarlığın qarşılıqlı əlaqələrini möhkəmləndirən yeni, daha səmərəli idarəetmə formaları və metodları ildən-ilə bu təminatı daha da gücləndirməkdədir.

Həqiqətən də 2003-cü ildə cənab İlham Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsindən sonra milli iqtisadi inkişaf modelimiz yeni keyfiyyətdə və yeni məzmunda uğurla təkmilləşdirilərək tamamilə yeni bir inkişaf mərhələsinə keçidin "sərhəd situasiyasını" formalaşdırmışdır. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi kimi, "Milli maraqların hər şeydən üstünlüyü" bu gün də dövlətimizin inkişaf strategiyasının ən mühüm prinsiplərindən biri kimi çıxış edir. Məhz, milli inkişaf maraqlarından irəli gələrək dünyada və regionda formalaşmış yeni şəraitin təhdidlərinə və çağırışlarına adekvat olaraq, preventiv tədbirlərin görülməsi sayəsində son 15 ildə Azərbaycan iqtisadiyyatında, daxili və xarici siyasətdə, sosial-mədəni və digər fəaliyyət sferalarında irimiqyaslı kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermiş, müsbət və strateji əhəmiyyətli yeni trendlər meydana gəlmişdir. Bütün bunların dünyada tüğyan edən geosiyasi və geoiqtisadi təhlükələrin, artan risklərin və təhdidlərin fonunda cərəyan etməsi milli inkişaf modelimizi dünya miqyasında bir nümunəyə, fenomenə çevirmişdir. Möhtərəm Prezidentimiz İlham Əliyevin qeyd etdiyi kimi: *"Bu gün dünyada nadir Azərbaycan inkişaf modeli var. Artıq biz bu barədə də danışa bilərik, çünki bu model, doğrudan da, bir nümunə kimi hər bir ölkə üçün maraqlı olmalıdır. Siyasi, iqtisadi islahatlar, müstəqil siyasət, dinlərarası dialoq, yüksək səviyyəli milli-dini tolerantlıq, dözümlülük, sosial siyasət və görülən işlər göz qabağındadır"*.

### İtirilmiş illərin bərpası

Əldə edilən bütün bu nailiyyətlərin miqyası deməyə əsas verir ki, "15 illik hakimiyyət dövrü" ifadəsi Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin yalnız fiziki zaman ölçüsünü



əks etdirir. Əslində bir qədər təhlili genişləndirərək dünya dövlətlərinin inkişaf tarixinə nəzər salsaq, mübaliğəsiz deyə bilərik ki, bu dövr ərzində görülən genişmiqyaslı işlərin və əldə edilən nailiyyətlərin həcmini bir çox dünya ölkələrinin reallığında ən azı 20-25 illik müddətə belə sığışdırmaq mümkün olmazdı. Başqa sözlə, ötən bu 15 il ölkəmizə xeyli əlavə zaman resursu qazandırmış, müstəqilliyin ilk dövrlərində itirilmiş illəri bərpa etməklə yanaşı, inkişaf etmiş ölkələr səviyyəsinə doğru irəlilədiyimiz yolu xeyli yaxınlaşdırmışdır.

Qeyd etmək lazımdır ki, hələ sovet dövrünün sonu və müstəqilliyin ilk illərində (1988-1993) bir-birini tez-tez əvəzləyən və hakimiyyəti qanunsuz, zorla ələ keçirən səriştəsiz, səmərəsiz idarəçiliyə malik olan və milli maraqları arxa plana keçirən biabırçı hakimiyyətlər dövrü iqtisadi inkişafımızı ən azı 13 il geri salmışdır. Bu fakt statistik göstəricilərdə də öz təsdiqini tapır. Belə ki, 1993-cü ildə ölkəmizdə istehsal olunmuş ümumi daxili məhsul iki dəfədən çox aşağı düşərək 1988-ci ilin müvafiq göstəricisinin 49,9 faizinə bərabər olmuşdur. Ölkəmiz itirilmiş iqtisadi potensialını yalnız 13 ildən sonra tamamilə bərpa edə bildi və məhz ulu öndər Heydər Əliyev və onun layiqli siyasi varisi cənab İlham Əliyevin siyasəti sayəsində bu dövrdə istifadə olunması mümkün olan bütün iqtisadi və siyasi resurslardan, düzgün dövlət idarəçiliyi sisteminin üstünlüklərindən məharətlə və daha səmərəli istifadə etməklə ölkəmizi düçar olduğu nəinki iqtisadi, siyasi, mədəni və institusional böhran vəziyyətindən xilas olunmasına, eləcə də ölkədə ictimai-siyasi sabitliyə, iqtisadi və sosial yüksəlişə, vətəndaş birliyinə nail olundu.

Sözsüz ki, ölkəmizin bu dirçəlişində və günbəgün qüdrətlənməsində 20 sentyabr 1994-cü il tarixində "Əsrin müqaviləsi"nin imzalanması ilə başlanan yeni uğurlu neft strategiyası əvəzsiz rol oynamışdır. Azərbaycanın müstəqillik tarixində dönüş nöqtəsi hesab edilən bu müqavilənin əhəmiyyəti haqqında danışarkən Prezident İlham Əliyev qeyd etmişdir: *"Bizim bugünkü inkişafımız, bugünkü nailiyyətlərimiz, Azərbaycanın həqiqətən müstəqil ölkə kimi dünya birliyinə qədəm qoyması böyük dərəcədə "Əsrin kontrakti"nın imzalanması ilə bağlıdır. Bu çox cəsarətli və müdrik addım idi. Əgər 1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə "Əsrin kontrakti" imzalanmasaydı, bu gün təsəvvür etmək mümkün deyil ki, Azərbaycan hansı vəziyyətdə ola bilərdi"*. Həqiqətən də o dövrdə nəinki tək Azərbaycanda, eləcə də bütövlükdə Cənubi Qafqazda iqtisadi-siyasi və hərbi-strateji maraqları olan böyük güclərin təzyiq və təhdidlərinə baxmayaraq ulu öndər Heydər Əliyevin siyasi iradəsi və qətiyyəti sayəsində "Əsrin müqaviləsi" imzalanmasaydı, nə bugünkü müstəqilliyimiz, qüdrətli dövlətimiz, dayanıqlı və güclü iqtisadiyyatımız, nə də böyük strateji valyuta ehtiyatlarımız, görülən genişmiqyaslı quruculuq-abadlıq işləri, həyata keçirilən nəhəng transregional layihələr, sosial proqramlar, infrastruktur layihələri və s. haqqında danışmaq mümkün olardı.

Ölkəyə rəhbərlik etdiyi 10 il ərzində Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etməklə, sözün əsl mənasında böyük xilaskarlıq missiyasını həyata keçirmiş ulu öndər Heydər Əliyevin ən böyük tarixi missiyalarından biri də özünün etibarlı siyasi varisini müəyyənləşdirməsi və qurucusu olduğu müasir Azərbaycanı etibarlı əllərə əmanət etməsi oldu. Azərbaycan dövlətçiliyinin gələcək inkişaf yolu və siyasi xəttini hər zaman düşünən ulu öndər Heydər Əliyevin İlham Əliyev haqqında Azərbaycan xalqına tarixi müraciətində dediyi: "...Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" - müdrik sözlər bu 15 il ərzində özünün tam təsdiqini tapdı. İlham Əliyev xalqın ona bəslədiyi ümidləri və etimadı tam mənası ilə doğrultdu, o, seçki öncəsi xalqa verdiyi bütün vədləri şərəflə yerinə yetirərək ümumxalq məhəbbətini qazandı. Azərbaycan məhz İlham Əliyevin dövründə, sözün əsl mənasında, dünyaya günəş kimi parladı.

### Sıçrayışlı inkişaf və tərəqqi dövrü

Əslində, İlham Əliyevin xalqın inam və etimadını doğruldacağı heç kimdə şübhə doğurmurdu və ümummilli lider tərəfindən onun namizədliyinin dəstəklənməsi heç də təsadüfi deyildi. Bütün bunlar İlham Əliyevin dahi Heydər Əliyev siyasi məktəbinin və həyat yolunun ən layiqli davamçısı kimi hələ 90-cı illərdən də əvvəl Mixail Qorbaçovun üzdəniraq yenidənqurma dövründə Heydər Əliyevin qarşılaşdığı bütün mürəkkəb və keşməkeşli vəziyyətlərdə, 20 Yanvar hadisələrində, Naxçıvanda baş verən proseslərdə, Yeni Azərbaycan Partiyasının yaradılmasında, 1993-cü ilin iyununda ölkə rəhbərliyinə gəldiyi ən çətin və taleyüklü məqamlarda daim onun yanında olub. Ulu öndərin memarı olduğu müstəqil Azərbaycan dövlətinin formalaşmasında və inkişafında, "Əsrin müqaviləsi"nin ərsəyə gəlib imzalanmasında, bu müqavilə ilə bağlı bütün beynəlxalq razılaşmaların əldə olunmasında, 1998-ci ildən sonra millət vəkili, Avropa Şurası Parlament Assambleyasında Milli Məclisin nümayəndə heyətinin rəhbəri və bu qurumun vitse-prezidenti kimi ölkənin beynəlxalq imicinin formalaşmasında, Azərbaycanla AŞ PA, Avropa İttifaqı və Avropa ölkələri arasında ikitərəfli və çoxtərəfli münasibətlərin formalaşmasında və inkişafında, informasiya blokadasında olan Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılmasında və digər sahələrdə gördüyü böyük işlərdən, göstərdiyi müstəsna xidmətlərdən irəli gəlirdi.

İlham Əliyevin 15 illik hakimiyyəti dövründə ölkəmizin əldə etdiyi sıçrayışlı inkişaf və tərəqqi ulu öndər Heydər Əliyevin neft strategiyasının və idarəetmə irsinin uğurlarından qaynaqlanmaqla, Azərbaycanın yeni müstəqillik tarixində, sözün əsl mənasında, öz möhtəşəmliyinə görə yaddaşlara qızıl hərflərlə əbədi həkk olunan bir çox əlamətdar hadisələrin zənginliyi ilə seçilir. Ərazimizin 20 faizinin işğal altında olması, bir milyondan çox qaçqın və məcburi köçkünlərin mövcudluğu, əlverişsiz qlobal və regional siyasi-iqtisadi mühitin getdikcə mürəkkəbləşməsi şəraitində iqtisadi inkişafın sürətləndirilməsi, hüquqi demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin yüksələn xətlə inkişaf etdirilməsi, milli mənəvi dəyərlərimizin zənginləşdirilməsi, milli ideologiyanın gücləndirilməsi, ölkəmizin tamamilə yeni statuslarda dünyaya təqdim olunması və beləliklə də müstəqilliyimizin dönməz surətdə möhkəmləndirilməsi bu dövrün misilsiz uğurları kimi dəyərləndirilməlidir.

Cəmiyyət həyatının əsasını - bazisini təşkil edən iqtisadiyyatımızın inkişafı sahəsində son 15 ildə əldə edilən mühüm uğurları sırasında ilkin kapital yığımının və bazar iqtisadiyyatına keçid prosesinin tamamilə başa çatdırılmasını, ölkədə dinamik, davamlı, dayanıqlı və şaxələndirilmiş surətdə inkişaf edən, dünya iqtisadiyyatına rasional formada inteqrasiya olunan, rəqabətqabiliyyətli milli iqtisadiyyatın formalaşmasını, regionda geoiqtisadi güc səviyyəsinə yüksəlməsini və bu mövqeyini ildən-ilə daha da möhkəmlənməsini xüsusi olaraq qeyd etmək vacibdir.

Etiraf etmək lazımdır ki, İlham Əliyevin hakimiyyətə gəldiyi dövrdə Azərbaycanda iqtisadi və sosial inkişaf, əhalinin həyat səviyyəsi, vətəndaş həmrəyliyi baxımından ictimai-siyasi vəziyyət o qədər də əlverişli deyildi. Cəmiyyətdə hələ də mövcud olan radikal müxalifət xarici mənbələrdən dəstək alaraq öz dağıdıcı fəaliyyətini davam etdirirdi. Yenicə dirçəlməyə başlamış iqtisadiyyatımız hələ cəmiyyətdə mövcud olan iqtisadi və sosial problemləri tam həll etmək iqtidarında deyildi. Sosial-iqtisadi göstəricilərin əvvəlki 10 illikdə əhəmiyyətli dərəcədə artmasına baxmayaraq 2003-cü ildə ölkənin ÜDM-i cəmi 7,1 mlrd. manat, dövlət büdcəsinin həcmi 1,2 mlrd. manat təşkil edirdi (müqayisə üçün qeyd edək ki, 1993-cü ildə ölkə üzrə bu göstəricilər müvafiq olaraq 31,4 mln. və 10,7 mln. manat həcmində idi). Yoxsulluğun səviyyəsi 44,7 faiz, işsizlik isə təqribən 10 faizə qədər təşkil edirdi. Ölkə iqtisadiyyatına 10 il ərzində 75 faizi xarici investisiya olmaqla ümumilikdə 16,8 mlrd. dollar həcmində investisiya qoyulmuşdu və ümumi investisiyaların 61 faizi, xarici investisiyaların isə 75 faizi neft sektoruna yönəldilmişdi. Eləcə də ölkəmizin ixrac gəlirlərinin 90 faizə qədəri neft sektoru hesabına formalaşmışdı. "Əsrin müqaviləsi"nin imzalanmasından doqquz il keçsə də, hələ neft hasilatı və ixracında elə bir ciddi irəliləyişə nail olunmamışdı (müvafiq olaraq son 15 ilin orta illik göstəricisindən 2,5 və 7,3 dəfə az), mövcud ixrac boru kəmərlərinin imkanları məhdud idi, dünya bazarında neftin qiymətinin cəmi 28 dollar təşkil etməsi səbəbindən neft müqavilələrindən ciddi məbləğdə gəlir əldə edilmirdi və nəticədə 2003-cü ildə təqribən 1,6 mlrd. dollar və ya indiki səviyyədən 28,7 dəfə az strateji valyuta ehtiyatımız mövcud idi ki, bu da ölkədə iqtisadi artım imkanlarını məhdudlaşdırırdı. Bütün bunlar, həm qeyri-neft sektorunda, həm də regionlarda iqtisadi fəallığın artırılması, regional və sahəvi inkişafın tarazlılığının təmin edilməsi, əhalinin məşğulluğunun və rifah səviyyəsinin yüksəldilməsi istiqamətində irimiqyaslı işlərin həyata keçirilməsinə lazımi imkanlar yaratmırdı.

Belə bir şəraitdə hakimiyyətə gələn İlham Əliyev qısa müddət ərzində Azərbaycanın iqtisadi inkişaf modelini tamamilə yeni fenomenal inkişaf trayektoriyasına çıxararaq daha da təkmilləşdirdi. Azərbaycanın təbii sərvəti olan neft-qaz faktorunu, sözün əsl mənasında, iqtisadi gücə çevirmək üçün ölkədə dünya standartlarına cavab verən maddi-texniki baza və infrastruktur formalaşdırdı, qara qızılın insan kapitalına çevrilməsi, regionlarda mövcud olan potensialın fəal surətdə iqtisadi dövriyyəyə cəlb olunması istiqamətində nəzərəçarpacaq irəliləyişlərə, bir çox sosial-iqtisadi sahələrin inkişafında yüksək göstəricilərə nail olundu.

İqtisadiyyatın diversifikasiyası və neftdən asılılığın azaldılması istiqamətində ardıcıl və sistemli şəkildə struktur və institusional islahatları özündə ehtiva edən bir sıra sosial-iqtisadi inkişaf proqramları və strateji sənədlərin qəbul edilməsi və reallaşdırılması ölkəmizin sosial-iqtisadi həyatında ciddi dönüş yaratdı. Bu sənədlər sırasında "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə 3 Dövlət Proqramı, "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli Strategiya", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı", "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı", kənd təsərrüfatında kooperasiyanın, eləcə də ənənəvi kənd təsərrüfatı sahələrinin - üzümçülüyün, pambıqçılığın, çayçılığın, çəltikçiliyin, sitrus meyvəçiliyin, baramaçılıq və ipəkçiliyin və s. inkişafına dair dövlət proqramları iqtisadiyyatımızın hərtərəfli və sistemli inkişafında, milli iqtisadiyyat sahələrinin xarici faktorların dağıdıcı təsirlərindən qorunmasında müstəsna rol oynamaqla yanaşı, gələcək iqtisadi artım üçün geniş imkanlar və potensial formalaşdırdı.

### İnstitusional və struktur islahatlarının faydası

Danılmaz faktdır ki, son 15 ildə uğurla həyata keçirilən neft strategiyası sayəsində əldə olunmuş gəlirlərdən düzgün istifadə edilməsi nəticəsində ölkə iqtisadiyyatının infrastrukturu əsaslı surətdə modernləşdirilmiş, qeyri-neft sahələrinin üstün inkişafı təmin edilmiş, dövlətin maliyyə aktivləri xeyli dərəcədə artmışdır. Lakin 2014-cü ildən başlayaraq dünya bazarında xam neftin qiymətlərinin kəskin surətdə azalması və ölkəmizin əsas ticarət tərəfdaşlarının milli valyutalarının devalvasiyaya uğramasının mənfi nəticələri Azərbaycan iqtisadiyyatından da yan keçmədi, manatın məzənnəsi aparıcı valyutalara nisbətdə xeyli ucuzlaşdı, ölkədə iqtisadi artım zəiflədi, tədiyə balansının profisiti əhəmiyyətli dərəcədə azaldı və qeyri-neft büdcə kəsiri isə yüksəldi. Bütün bunlar təbii ki, iqtisadi inkişaf modelində davamlı inkişafı təmin etmək məqsədi ilə yeni yanaşmaya keçidi, institusional və struktur islahatlarının dərinləşməsini obyektiv zərurətə çevirdi.

Bu kontekstdə Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq olunmuş Milli iqtisadiyyat perspektivi və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Cari, orta və uzunmüddətli dövrlər üzrə inkişaf hədəflərini və tədbirlər planını özündə ehtiva edən və elmi cəhətdən əsaslandırılan strateji yol xəritələrinin hazırlanması bir daha sübut edir ki, bu gün ölkədə düşünülmüş, ardıcıl, sistemli, koordinasiya edilən, riskləri qabaqcadan nəzərə alan və qiymətləndirən, çox ssenarili, nəticəyə əsaslanan effektiv iqtisadi siyasət həyata keçirilir. Strateji yol xəritələrində milli iqtisadiyyatın perspektivləri kontekstində dörd strateji hədəfin seçilməsi və 11 sektor üzrə strateji yol xəritələrinin həyata keçirilməsi nəticəsində real sektorla maliyyə sektoru arasında tarazlığın təmin edilməsi kimi qarşıya çox mühüm vəzifələr qoyulmuşdur. Başqa sözlə, fiskal və monetar siyasətlərin uzlaşdırılması, paylarının nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin artırılması və özəlləşdirmənin həyata keçirilməsi, insan kapitalının inkişafı ilə əmək bazarının inkişafını milli iqtisadiyyat perspektivinə uyğunlaşdırılması və biznes mühitinin daha da yaxşılaşdırılması yolu ilə davamlı iqtisadi inkişafın təmin olunması nəzərdə tutulur.

Ölkəmizdə sürətli iqtisadi artım templərinin əldə olunması, yüz minlərlə yeni iş yerlərinin yaradılması, qeyri-neft sektoruna yönəldilən xarici investisiyaların həcminin artırılması, eləcə də bu sektorun ixrac potensialının yüksəldilməsi və bütövlükdə ölkə iqtisadiyyatının neftdən asılılığının minimuma endirilməsi və s. bu kimi hədəfləri özündə ehtiva edən strateji yol xəritələri milli iqtisadiyyatın rəqabət qabiliyyətinin, inklüzivliyin və sosial rifahın daha da artırılmasını təmin edəcək və Azərbaycanın dünya iqtisadiyyatında mövqeyini daha da gücləndirəcəkdir. Bütövlükdə, bu islahatlar neft hasilatından və neft qiymətlərindən asılı olmayaraq ölkəmizin kompleks inkişafını təmin edə bilən, neftdən kənar iqtisadiyyatın qurulması istiqamətində qısa zaman ərzində ciddi nəticələrin əldə olunmasına hədəflənmişdir.

Azərbaycanın iqtisadi və sosial inkişafında İlham Əliyev tərəfindən proqram-məqsədli yanaşmaya üstünlük verilməsi nəticəsində son 15 il ərzində qarşıya qoyulmuş vəzifələrin uğurla icra edilməsi üçün real zəmin yaranmış və yüksək templərlə artan makroiqtisadi göstəricilərə nail olunmuşdur. Belə ki, bu dövrdə ümumi daxili məhsul 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə ÜDM 2,8 dəfə artmış və qeyri-neft sektorunun iqtisadiyyatda payı 62,8 faizə qədər yüksəlmişdir. Ölkəmizdə orta illik iqtisadi artım tempi dünyada ən yüksək nəticələrdən biri kimi qeydə alınmış və Azərbaycan dünyada iqtisadi və sosial cəhətdən ən sürətli inkişaf edən ölkə olmuşdur. Bütün bunların nəticəsində Dünya Bankının məlumatlarına əsasən, Azərbaycan ÜDM-in həcminə görə dünya ölkələri arasında 20 pillədən çox irəliləmiş və hazırda Cənubi Qafqaz iqtisadiyyatının 60 faizindən çoxunu təşkil edərək, regionda liderlik mövqeyini daha da gücləndirmişdir. Son 15 ildə adambaşına düşən ÜDM-in həcmində isə 2,7 dəfə real artıma nail olmuşdur ki, bu da Azərbaycanın dünya ölkələri arasında 29 pillə yüksəlməsinə səbəb olmuşdur. Nəticədə Dünya Bankı tərəfindən adambaşına düşən milli gəlirin həcminə görə dünya ölkələrinin təsnifatı sistemində Azərbaycanın mövqeyini aşağı gəlirli ölkələr qrupundan yuxarı-orta gəlirli ölkələr qrupuna yüksəltmişdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi və onun ixrac potensialının artırılması məqsədilə, istər qeyri-neft sənayesi, istər kənd təsərrüfatı, istərsə də xidmət sektorunda istehsalın və infrastruktur təminatının genişləndirilməsi və modernləşdirilməsi istiqamətində görülən işlər strateji əhəmiyyət kəsb edir. Xüsusilə, son dövrlərdə qəbul edilmiş dövlət proqramları çərçivəsində regionlarda - Sumqayıt, Balaxanı, Mingəçevir, Qaradağ, Pirallahı, Neftçala, Masallı və s. rayonlarda yaradılmış çoxlu sayda sənaye və texnoloji parkları, sənaye məhəllələrini və onların ərazisində fəaliyyət göstərən yeni istehsal müəssisələrini misal göstərmək olar ki, bütün bunlar da ölkənin iqtisadi potensialının və ixrac imkanlarının yüksəlməsinə xidmət edir. Biznes mühitinin yaxşılaşdırılması, inzibati prosedurların sadələşdirilməsi və şəffaflaşdırılması, fiskal siyasətin stimullaşdırıcı və motivasiya yaradan mexanizmlərindən maksimum istifadə edilməsi, vergi yükünün azaldılması və vergi güzəştlərinin genişləndirilməsi, sahibkarlığa dövlət dəstəyinin daha da gücləndirilməsi, sağlam rəqabət mühitinin təmin edilməsi, ixrac və investisiya fəaliyyətinin təşviqi, daxili bazarın qorunması istiqamətində tədbirlərin optimallaşdırılması və s. sahələrdə həyata keçirilən tədbirlər də əldə edilən nəticələrin nəzərəçarpacaq dərəcədə yüksəlməsinə şərait yaradır.

Bununla yanaşı, ölkə başçısının təşəbbüsü və xüsusi diqqəti sayəsində ənənəvi kənd təsərrüfatı sahələrinin genişləndirilməsi istiqamətində görülən tədbirlər aqrar sektorun ixrac potensialının nəzərəçarpacaq dərəcədə artırılmasına yönəldilmişdir. Ayrı-ayrı ərazilər üzrə istehsal olunan kənd təsərrüfatı məhsullarının əkin coğrafiyasının və istehsal olunan məhsulların strukturunun ölkənin təbii-iqlim və ənənəvi istehsal şəraitinə uyğun inkişaf etdirilməsi, iri fermer təsərrüfatlarının və aqroparkların yaradılması, istehsal kooperativlərinin və assosiasiyalarının təşkil edilməsi bu dövrdə kənd təsərrüfatının inkişafına yeni yanaşma kimi qiymətləndirilə bilər.

Eləcə də bütün mövcud infrastrukturların modernləşdirilməsi və genişləndirilməsi istiqamətində ciddi irəliləyişlər baş vermişdir Yalnız son 15 ildə 3500-dək məktəb, 642 tibb müəssisəsi tikilmiş və ya əsaslı təmir edilmişdir. Bununla yanaşı, Heydər Əliyev Fondu tərəfindən "Yeniləşən Azərbaycana yeni məktəb" və digər sosial layihələr çərçivəsində yüzlərlə məktəb, məktəbəqədər təhsil müəssisələri, uşaq evləri, internat məktəbləri, tibb müəssisələri, mədəniyyət mərkəzləri və s. inşa edilmiş və ya yenidən qurulmuşdur. Yol, nəqliyyat və enerji infrastrukturlarının genişləndirilməsində əhəmiyyətli işlər görülmüşdür. Belə ki, bu dövr ərzində 15 min kilometr yol çəkilmiş, 443 körpü inşa olunmuş, 4 yeni metro stansiyası, 7 hava limanı, Xəzər dənizində ən böyük beynəlxalq dəniz limanı kompleksi hesab edilən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, 30 elektrik stansiyası tikilib istifadəyə verilmiş, qaz təchizatı 51 faizdən 95 faizə qədər yüksəldilmişdir. Eyni zamanda, qəbul edilmiş strateji yol xəritələrinə əsasən ölkəmizdə qeyri-neft ixracının təşviq edilməsi və yeni ixrac bazarları hesabına genişləndirilməsi, idxaləvəzləyici istehsal sahələrinin inkişafı və yerli istehsalın idxal komponentlərindən asılılıq dərəcəsinin azaldılması, xarici investisiya və texnologiyaların cəlb edilməsini həvəsləndirən əlverişli investisiya mühitinin təmin edilməsi, ölkənin maliyyə sisteminin sağlamlaşdırılması və fiskal dayanıqlığının gücləndirilməsi, müasir dövrün tələblərinə cavab verən insan kapitalının inkişaf etdirilməsi istiqamətində görülən işlər ölkəmizin hələ uzun illər "sabitlik adası" kimi cəlbediciliyini artıracaqdır.

### Özününtəminatın və "ikinci iqtisadiyyat"ın formalaşması

Digər mühüm nailiyyət Azərbaycanın özünü təmin edən iqtisadiyyata malik tam müstəqil dövlətə çevrilməsidir. Təbii ki, iqtisadi müstəqilliyi olmayan ölkə siyasi cəhətdən də müstəqil ola bilməz. Bu məsələni öz çıxışlarında tez-tez vurğulayaraq hər zaman diqqət mərkəzində saxlayan cənab İlham Əliyevin 15 illik fəaliyyəti dövründə ölkəmiz iqtisadi cəhətdən tam müstəqil ölkəyə çevrildi ki, bu bizim siyasi müstəqilliyimizi də möhkəmləndirdi.

Azərbaycan iqtisadiyyatı dünyada özünü təmin edən az saylı iqtisadiyyatlardan biri olaraq xarici kreditlərdən asılılığını tam olaraq aradan qaldıra bilmişdir. Başqa sözlə, hazırda ölkə iqtisadiyyatında nəzərdə tutulmuş hədəflərə müstəqil surətdə nail olmaq üçün kifayət qədər maliyyə resurslarına sahibik. Ölkəmizdə xarici borcun səviyyəsi beynəlxalq maliyyə təşkilatlarının müəyyən etdiyi təhlükəsizlik hədlərindən də xeyli aşağıdır. Ümumi daxili məhsula nisbəti cəmi 20 faiz təşkil edən xarici borcumuzdan 5 dəfə çox strateji valyuta ehtiyatlarımız mövcuddur ki, bu da dünyanın çox az sayda ölkəsində əldə edilən uğurlu nəticələrdən biridir.

Ölkəmizdə islahatların uğurla reallaşdırılması nəticəsində iri həcmdə strateji valyuta ehtiyatları formalaşmışdır. 2004-cü illə müqayisədə hazırda strateji valyuta ehtiyatları 25 dəfədən çox artaraq təqribən 46 milyard ABŞ dolları təşkil edir ki, bu da dünya iqtisadiyyatında davam edən mənfi trendlərin doğura biləcəyi riskləri azaltmağa və tam aradan qaldırmağa imkan yaratmaqla, gələcək inkişaf hədəflərinə uyğun olaraq iqtisadi inkişafın maliyyələşdirilməsi üçün mühüm amildir. Bununla yanaşı, son 15 ildə ölkə iqtisadiyyatına qoyulmuş investisiyaların həcmi müstəqillik illərində yatırılmış ümumi sərmayələrin 93 faizini təşkil etməklə 250 milyard ABŞ dollarına çatmışdır. Daxili və xarici investisiyaların paylarının təxminən bərabər olması və qeyri-neft sektoruna yönələn investisiyaların neft sektorunu xeyli üstələməsi milli maraqların yüksək səviyyədə təmin olunduğu tarazlı iqtisadiyyatın formalaşdırılmasına və inkişafına əhəmiyyətli töhfədir. Son 15 il ərzində aparılan uğurlu siyasət nəticəsində qürur hissi ilə deyə bilərik ki, bu gun Azərbaycan özünün iqtisadi, maliyyə, enerji, nəqliyyat, ərzaq, hərbi-strateji və digər sahələrdə təhlükəsizliyini təmin edən nadir ölkələrdən biridir.

Dövrün mühüm uğurlarından biri də Azərbaycan kapitalının transmilliləşməsi nəticəsində ölkəmizin qlobal geniş təkrar istehsal tsiklinə qoşularaq "ikinci iqtisadiyyatı"nı formalaşdırmaqla dünya gəlirlərindən pay əldə etmək imkanlarının yaradılmasıdır. Artıq Azərbaycan dünya iqtisadiyyatında resipiyent ölkədən donor ölkəyə, yəni investisiya qəbul edən ölkədən investisiya ixrac edən ölkəyə çevrilmiş, yaxın coğrafiyada iri, etibarlı investor ölkə kimi yeni status əldə etmişdir. Azərbaycan bu dövrdə Türkiyə, Gürcüstan, Rusiya, Ukrayna, İran, Belarus, Moldova, İsveçrə və digər ölkələrin iqtisadiyyatlarına bütövlükdə 17 mlrd. dollardan çox sərmayə qoyuluşu həyata keçirmişdir. Yaxın qonşu və dost ölkələr olan Türkiyə və Gürcüstan iqtisadiyyatına qoyulan xarici investisiyaların həcminə görə ölkəmiz lider investor mövqeyinə sahibdir. Xüsusilə qeyd etmək lazımdır ki, "G 20" ölkəsi olan və iqtisadiyyatının ölçüsünə görə dünyada 17-ci yerdə qərarlaşan qardaş Türkiyə ilə investisiya əməkdaşlığı daha yüksək səviyyədə inkişaf etmişdir və 2020-ci ilədək Azərbaycanın qardaş ölkənin iqtisadiyyatına yatıracağı investisiyanın həcminin 20 milyard dollara çatdırılması planlaşdırılmışdır. Bu istiqamətdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) irimiqyaslı transmilli fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Buna konkret misal olaraq 2008-ci ildə Türkiyənin ilk və yeganə neft-kimya müəssisəsi olan "Petkim Holdinq"in özəlləşdirilməsi zamanı SOCAR-ın 2,04 mlrd. dollar həcmində vəsait qoyuluşu ilə şirkətin səhmlərinin 51 faizinə sahib olmasını göstərmək olar. İllik istehsal gücü 3,6 milyon ton olan, 60 növdə məhsul istehsal edən və bu məhsulları 50-dən çox ölkəyə ixrac edən "Petkim Holdinq" hazırda Türkiyənin neft-kimya məhsullarına olan tələbatının 20 faizini təmin edir. Bundan əlavə, SOCAR tərəfindən Türkiyədə inşa edilmiş "Star" neft emalı zavodu Azərbaycan tarixində xarici ölkə iqtisadiyyatına ən böyük həcmdə sərmayə qoyuluşu layihəsi hesab olunur. Ümumi neft emalı gücü 10 milyon ton təşkil edən "Star" zavodunun tikilməsinə SOCAR tərəfindən 6,3 milyard dollar həcmində investisiya qoyulmuşdur. Layihənin həyata keçirilmə müddətində 19500 işçi çalışmış və zavod işə başladığı andan 1100 yeni iş yeri yaradılmışdır. İlkin hesablamalara görə, neftin qiymətindən asılı olaraq "Star"ın ticarət həcmi hər il 6-8 milyard dollar təşkil edəcəkdir. Bütün bunlar, Azərbaycanın "ikinci iqtisadiyyatı"nın yaradılması istiqamətində önəmli addımlar olmaqla yanaşı, müasir beynəlxalq iqtisadi münasibətlər sistemində "nümayiş effekti" və "miqyas effekti" yaradan mühüm iqtisadi amil olaraq ölkəmizin dünya bazarındakı mövqelərini daha da gücləndirir.

*(Ardı var)*

***Şəmsəddin HACIYEV,***
***Milli Məclisin deputatı,***
***YAP Səbail rayon təşkilatının sədri, iqtisad elmləri doktoru, professor***

# Vaşinqtonda Azərbaycan Parlamentinin 100 illiyi qeyd olunub





Vaşinqtonda məşhur Hərbi Dəniz Qüvvələrinin Mərkəzində Azərbaycan Parlamentinin 100-cü ildönümü ilə əlaqədar ziyafət təşkil olunub. Bu münasibətlə "Əbədi Ezamiyyət" sənədli filminin təqdimatı da keçirilib. AZƏRTAC xəbər verir ki, ABŞ-ın dövlət qurumlarının, Vaşinqtondakı diplomatik korpusun, Azərbaycan diasporunun nümayəndələrinin, ictimai-siyasi xadimlərin də qatıldığı ziyafətdə ümumilikdə 250 nəfərdən çox nümayəndə iştirak edib. Ziyafət Azərbaycanın ABŞ-dakı səfirliyi tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü ilə əlaqədar silsilə tədbirlər çərçivəsində keçirilib.

Tədbirdə çıxış edən ölkəmizin ABŞ-dakı səfiri Elin Süleymanov Azərbaycan Xalq Cümhuriyyətinin müsəlman Şərqində ilk demokratik respublika olduğunu, həmin respublikanın bir çox sahələrdə, o cümlədən diplomatiya sahəsində uğurlar əldə etdiyini xatırladıb. Bu xüsusda, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri, böyük ziyalı Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyətinin Paris Sülh Konfransında fəaliyyətindən danışan səfir çətin şəraitə rəğmən Azərbaycanın de-fakto müstəqilliyinin müttəfiq dövlətlərin şurası tərəfindən tanınmasına nail olduğunu vurğulayıb.

Paris Sülh Konfransında Azərbaycan nümayəndə heyətinin uğurları barədə danışan səfir həmin heyətin 1919-cu il mayın 29-da ABŞ Prezidenti V.Vilsonla görüşdüyünü və sonradan V.Vilsonun onlar barədə çox yüksək fikirlər söylədiyini xatırladıb. Ə.Topçubaşov və digər heyət üzvlərinin Azərbaycanın müstəqilliyi naminə həyatlarının sonunadək çalışdıqlarını bildirib.

Səfir xatırladıb ki, Azərbaycan öz müstəqilliyini qazandıqdan sonra Fransaya ilk dəfə rəsmi səfərə gedən ümummilli lider Heydər Əliyev Ə.Topçubaşov və digərlərinin məzarını ziyarət edib. Onların məzarlarının abadlaşdırılmasına xüsusi diqqət ayrılır və dövlətimiz Azərbaycan uğrunda həyatlarının sonunadək çalışmış bu dövlət xadimlərinin xatirəsini bu gün də uca tutur. Səfir vurğulayıb ki, ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyev Azərbaycanın müstəqil dövlətçilik ideallarını layiqincə yaşatmaqdadır.

E.Süleymanov, həmçinin qeyd edib ki, 1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa edəndən sonra onun ABŞ tərəfindən tanınması və diplomatik münasibətlər qurması bu günlərdə vəfat etmiş ABŞ-ın 41-ci Prezidenti Corc Herbert Buşun rəhbərliyi dövründə baş verib.

Sənədli filmi ərsəyə gətirən bütün heyətə təşəkkürünü bildirən səfir əsərin baş prodüseri Arzu Əliyevaya, filmi hazırlayan Bakı Media Mərkəzinə və göstərdiyi dəstəyə görə Heydər Əliyev Fonduna və fondun prezidenti Mehriban Əliyevaya xüsusi minnətdarlığını ifadə edib.

Sonra Azərbaycan Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycan-ABŞ dostluq qrupunun rəhbəri Səməd Seyidov çıxış edib. O, hər bir xalq kimi Azərbaycan xalqının da arzularının olduğunu və müstəqil dövlət qurmaqla bu arzuların bir qisminə nail olunduğunu vurğulayıb. Azərbaycanın müstəqil inkişaf yolu ilə getdiyini söyləyən S.Seyidov Azərbaycan-ABŞ münasibətlərinin vacibliyinə toxunub, ölkələrimiz arasında mövcud strateji tərəfdaşlığın əhəmiyyətini qeyd edib.

Daha sonra "Əbədi Ezamiyyət" filmi nümayiş etdirilib.

# Azərbaycan ilə Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın iclası keçirilib



Belqradda Azərbaycan ilə Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 5-ci iclası keçirilib.

İqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədri Şahin Mustafayevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Serbiyada səfərdə olub.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan nümayəndə heyəti Belqradın Taşmaydan Parkında ümummilli lider Heydər Əliyevin abidəsinin önünə əklil qoyub, xatirəsini ehtiramla yad edib. Nümayəndə heyəti, həmçinin yazıçı Milorad Pavicin və 1999-cu ildə Belqradın bombalanması zamanı öldürülən uşaqların xatirəsinə ucaldılmış abidələri də ziyarət edib.

Sonra Serbiya Palatasında Hökumətlərarası Komissiyanın həmsədrlərinin - Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayevin, Serbiyanın Baş nazirinin müavini, ticarət, turizm və telekommunikasiya naziri Rasim Lyayiçin rəhbərlik etdiyi nümayəndə heyətləri üzvlərinin və Serbiya şirkətlərinin iştirakı ilə "dəyirmi masa" keçirilib. Tədbirdə Azərbaycanda yaradılmış əlverişli biznes və investisiya mühiti barədə məlumat verilib, Azərbaycan və Serbiya işgüzar dairələri arasında əlaqələrin inkişafına, biznes sahəsində ikitərəfli əməkdaşlığın genişləndirilməsinə dair müzakirələr aparılıb.

Həmin gün Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 5-ci iclası keçirilib. Azərbaycan tərəfindən iqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərlik etdiyi Hökumətlərarası Komissiyaya müvafiq dövlət qurumlarının yüksəkvəzifəli rəsmiləri daxil idi. Serbiya tərəfi isə iclasda Baş nazirin müavini, ticarət, turizm və telekommunikasiya naziri Rasim Lyayiçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub.

İclasda çıxış edən nazir Şahin Mustafayev Azərbaycan və Serbiya əlaqələrinin strateji əməkdaşlığa, qarşılıqlı dostluq və hörmət prinsiplərinə əsaslandığını, dövlət başçılarının əməkdaşlığa böyük önəm verdiyini qeyd edib.

Şahin Mustafayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2011-ci ildə Serbiyaya, Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin 2018-ci ilin mayında Azərbaycana səfərlərinin ikitərəfli əməkdaşlığın inkişafında mühüm əhəmiyyətini vurğulayıb.

Diqqətə çatdırılıb ki, ölkələrimiz arasında möhkəm hüquq-müqavilə bazası mövcuddur. Serbiya ilə ticarət-iqtisadi, investisiyaların təşviqi, vergitutma və s. sahələrdə 30-dan çox sənəd imzalanıb.

2013-cü ildə imzalanmış "Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamə" və 2018-ci ilin mayında imzalanmış "Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında Strateji Əməkdaşlıq üzrə Birgə Fəaliyyət Planı" ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın xarakterini müəyyən edən əsas sənədlərdir.

Serbiya Respublikası Prezidentinin Azərbaycana sonuncu səfəri zamanı ölkələrimiz arasında tibb və tibbi təhsil, məhkəmə, karantin və bitki mühafizəsi, beynəlxalq yükdaşımalar və hava əlaqələri sahəsində bir sıra mühüm sənədlər imzalanıb, Azərbaycan-Serbiya işgüzar görüşü keçirilib.

Qeyd edilib ki, ölkələrimiz arasında əməkdaşlığın əsas istiqamətlərindən biri də ticarət əlaqələridir. 2017-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsi 36 faiz, 2018-ci ilin ilk 9 ayında isə 33 faiz artıb. Azərbaycan və Serbiya arasında qarşılıqlı investisiya qoyuluşu həyata keçirilir. Azərbaycanın "AzVirt" şirkəti Serbiyada həyata keçirilən infrastruktur layihələrində iştirak edir. Turizm sahəsində də əməkdaşlığımız inkişaf edir. 2017-ci ildə Azərbaycana gələn Serbiya vətəndaşlarının sayında 14 faiz artım müşahidə edilib. Azərbaycan vətəndaşları Serbiyaya vizasız səfər edə bilər, Serbiya vətəndaşları isə ölkəmizə səfər zamanı "ASAN viza" sisteminin imkanlarından istifadə edə bilərlər. Humanitar sahədə əməkdaşlığa gəlincə, Şahin Mustafayev qeyd edib ki, 2018-ci ildən Belqrad Universitetində Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi, Azərbaycan Dillər Universitetində Serb Dili və Mədəniyyəti Mərkəzi fəaliyyət göstərir. İqtisadiyyat naziri Şahin Mustafayev vurğulayıb ki, dövlət başçılarının möhkəm siyasi iradəsi, ölkələrimizin geniş iqtisadi potensialı və qarşılıqlı maraq səmərəli əməkdaşlıq üçün əlverişli imkanlar yaradır.

Serbiyanın Baş nazirinin müavini Rasim Lyayiç çıxışında ölkəsinin Azərbaycanla əlaqələrə böyük əhəmiyyət verdiyini vurğulayıb, ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi, energetika, kənd təsərrüfatı, infrastruktur, İKT, turizm və s. sahələrdə əməkdaşlıq imkanlarını qeyd edib.

İclasda komissiya üzvləri müzakirə olunan məsələlərə və iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə əməkdaşlığın inkişafına dair fikir mübadiləsi aparıblar.

Sonda Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 5-ci iclasının yekunlarına dair Protokol imzalanıb. Sənədi komissiyanın həmsədrləri - Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Serbiyanın Baş nazirinin müavini, ticarət, turizm və telekommunikasiya naziri Rasim Lyayiç imzalayıblar. Sənəddə iqtisadi-ticarət, investisiya, maliyyə, sənaye, enerji, nəqliyyat, infrastruktur, kənd təsərrüfatı, kiçik və orta sahibkarlıq, İKT, təhsil, səhiyyə, ekologiya, turizm, mədəniyyət, gənclər, idman və digər sahələrdə əməkdaşlığın davam etdirilməsi və genişləndirilməsi nəzərdə tutulur.

Serbiyaya səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Serbiyanın səhiyyə naziri Zlatibor Lonçarla görüşüb. Görüşdə Azərbaycanda yaradılmış Pirallahı Sənaye Parkının imkanları barədə məlumat verilib, Serbiya şirkətləri ilə əczaçılıq sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib.

# "Elektron hökumət": operativliyə, şəffaflığa və məmnunluğa keçid

*Əvvəli 1-ci səh.*

Bura ailə-kəndli təsərrüfatının onlayn uçota alınması, dövlət sosial sığorta şəhadətnaməsinin dəyişdirilməsi və ya dublikatının verilməsi üçün müraciətin qəbulu, əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi, əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və s. xidmətlər daxildir.

Kənd Təsərrüfatı Nazirliyi isə 22 adda elektron xidmət göstərir. Bunlardan ən vacibləri "Aqrolizinq" ASC tərəfindən yeni alınan, lizinqə verilən və lizinq yolu ilə satılan kənd təsərrüfatı texnikasına güzəştlərin tətbiq edilməsi barədə müraciətlərin qəbulu, bitki və bitkiçilik məhsullarının ixracına fitosanitar sertifikatının verilməsi üçün müraciətin və sənədlərin qəbulu, bitki və bitkiçilik məhsullarının təkrar ixracına təkrar ixracat fitosanitar sertifikatının verilməsi üçün müraciətin və sənədlərin qəbulu və sairdir. Beləliklə, ölkənin aqrar sektorunda çalışan fermerlər də təsərrüfatlarında işlərini yarımçıq qoymadan problemlərinin həlli ilə məşğul ola bilir, vaxtlarına elektron müraciət hesabına qənaət edirlər.

Ən çox müraciət edilən sahələr Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi, ünvanlı sosial yardımla bağlıdır. Gömrük komitəsində malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi üzrə elektron gömrük bəyannaməsinin qəbulu, gömrük rəsmiləşdirilməsi və rəsmiləşdirilmə prosesinin onlayn monitorinqi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyində isə mobil nömrə daşınması xidməti vasitəsilə digər şəbəkəyə daşınmış nömrələr barədə məlumatın verilməsi, telefon nömrəsi üzrə axtarışdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində iş yerinə dair arayışların verilməsi ilə bağlı da çoxsaylı müraciətlər olur.

"Elektron hökumət"in təcrübəsi artdıqca göstərdiyi elektron xidmətlərin siyahısına yeniləri əlavə edilir. Artıq "Azərsu" ASC su nümunələrinin yoxlanılmasına dair müraciətləri qəbul edir, yeni istehlakçının qeydiyyata alınmasına baxır, Dövlət Gömrük Komitəsi vətəndaşlardan quruma daxil olan sorğu və məktubların icrasının müraciət edənlər tərəfindən onlayn izlənilməsini təmin edir, idxal-ixrac vergilərindən azadolma haqqında sertifikat almaq üçün müraciətlərə cavab verir. Əmanətlərin Sığortalanması Fondu əmanətçilərin şəxsiyyətini təsdiq edən sənəd məlumatlarının dəqiqləşdirilməsinə dair elektron müraciəti, Kənd Təsərrüfatı Nazirliyi traktor və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün sürücülük vəsiqəsinin dəyişdirilməsi üçün müraciətin və sənədlərin qəbulunu da yeni xidmətlər siyahısına daxil etmişdir.

Bu gün ölkədə "Elektron hökumət" haqqında az danışılmasına baxmayaraq, onun bürokratik maneələrin qarşısının alınmasında və bütün nazirlikləri əhatə etməklə şəffaflığın təmin edilməsindəki rolu danılmazdır.

***B.İMANQULİYEV,***
***"Azərbaycan"***

# Zəhmətin bal kimi bəhrəsi

## Son 9 ildə Azərbaycanda arı ailələrinin sayı 1,9, bal istehsalı isə 2,2 dəfə artıb

*Əvvəli 1-ci səh.*

Məlumat üçün bildirək ki, hazırda Amerika dünyada bal istehsalına görə liderdir. İndi kim inkar edə bilər ki, ABŞ-ın bu liderliyində Azərbaycanın payı yoxdur.

Ölkədə arıçılığı inkişaf etdirmək məqsədilə dövlət başçısı tərəfindən cari il martın 5-də "Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında" sərəncam imzalanıb. Sahənin inkişafına dövlət dəstəyini təmin edən bu sərəncamı arıçılıqda yeni bir dönəmin başlanması kimi qəbul etmək olar. Belə ki, sərəncama uyğun olaraq Nazirlər Kabineti "Arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə subsidiya verilməsi Qaydası"nı təsdiq edib. Bu qaydaya əsasən, arıçılar hər il saxladıqları hər arı ailəsinə (pətəyə) görə 10 manat subsidiya alacaq. Qərar bu il də daxil olmaqla 5 il müddətində qüvvədə olacaq.

Yeri gəlmişkən bildirək ki, bu günlər arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə subsidiya verilməsi üzrə Respublika Komissiyasının növbəti iclası keçirilib. İclasda 11 rayon komissiyasından daxil olan sənədlərə baxılıb, 1249 arıçıya saxladıqları 31565 arı ailəsinə görə dövlət büdcəsinin vəsaiti hesabına hər arı ailəsinə 10 manat hesabı ilə 315 min 650 manat məbləğində subsidiya verilməsi barədə qərar qəbul edilib.

Ölkəmiz arıçılığın inkişafı ilə bağlı BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə də əməkdaşlıq edir. Bu çərçivədə keçirilən Azərbaycanda Arıçılıq Sahəsində Məhsuldarlığın Artırılması Vasitəsilə Kənd Əhalisinin Yaşayışının Yaxşılaşdırılması layihəsi həm iqtisadi, həm də sosial xarakter daşıyır. Layihənin məqsədi ölkəmizdə Qafqaz bal arılarının məhsuldarlığının artırılması ilə kənd əhalisinin yaşayış imkanlarının yaxşılaşdırılmasıdır. Dəyəri 200 min dollar olan layihə çərçivəsində türkiyəli mütəxəssislər yerli arıçılara onların müvafiq biliklərinin artırılması, ana arıların seçilməsi, istehsalı və marketinq üzrə təlimlər keçirlər. Eyni zamanda arıçılıqda son dövrlər qazanılan elmi nəticələrlə, texnika və texnologiya ilə yerli arıçıları maarifləndirməklə onların peşəkarlığını artırırlar.

Arı məhsullarından qida və dərman vasitələri kimi də istifadə edilir. Hazırda dünyada təmiz bal və digər arı məhsullarına tələbat böyükdür. Odur ki, ölkəmizdə arıçılığın inkişafı daxili tələbatı ödəməklə yanaşı, ixraca da hesablanıb. Keçən il 54,8 min dollar dəyərində 6,5 ton bal 5 ölkəyə ixrac edilib ki, onun da 93,8 faizi Yaponiyanın payına düşüb. Göründüyü kimi, Yaponiya bazarında Azərbaycanın arıçılıq məhsullarına tələbat böyükdür. Bu üzdən gündoğan ölkənin bazarı müştəri sarıdan arıçılarımız üçün yaxşı fürsətdir.

Dövlət Statistika Komitəsi tərəfindən verilən son məlumata görə, ötən il 21165 təsərrüfatda mövcud olan 271,2 min arı ailəsindən 3043,1 ton bal, 90,2 ton mum, 11,2 ton vərəmum, 8,1 ton güləm və 281,7 kiloqram arı südü əldə olunub. Ötən il 1 kiloqram balın orta satış qiyməti 23,7, mumun orta satış qiyməti 11,5, vərəmumun orta satış qiyməti 116,7, güləmin orta satış qiyməti 56,7, arı südünün 1 qramının orta satış qiyməti isə 4,9 manat olub.

"Arıçılıq haqqında" qanunun qəbulundan keçən 9 il ərzində arıçılıq təsərrüfatları üçün dövlət tərəfindən güzəştli kreditlərin ayrılması, arıçılıq üzrə damazlıq təsərrüfatlarının yaradılması, arıçılıq məhsullarının qablaşdırılması və satışa çıxarılması sahəsində çox iş görülüb. Bu qanunun qəbulundan ötən 9 il ərzində arı ailələrinin sayı 1,9, bal istehsalı 2,2 dəfə artıb, arıçılıqla məşğul olan bir təsərrüfata düşən arı ailəsinin sayı 11,1-dən 12,8-ə çatıb.

Arıçılığa dəstək məqsədilə Bakı şəhərində hər il satış-sərgi yarmarkası keçirilir. Cari il keçirilən satış-sərgi yarmarkasında 371 sahibkardan 150 ton süzmə bal daxil olmuşdu. Onların 5 tonu çərçivə halında idi. Yarmarkaya ən çox arı məhsulları Astara və Aran rayonlarından gətirilmişdi.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Rusiya Azərbaycanı seçir

## Bunun yaxın və uzaq tarixə söykənən əsasları var

*Əvvəli 1-ci səh.*

Azərbaycan Prezidenti İlham Əliyev Sankt-Peterburqdakı işgüzar görüşə üzüağ, alnıaçıq getmişdir. Paşinyan isə yalan vədlər və cılız diplomatik hiylələrlə "sədaqət rəqsi" oynamağa gəlmişdir. Rusiya rəsmiləri etiraf edərlər ki, Azərbaycan-Rusiya münasibətləri bütün istiqamətlərdə - humanitar, siyasi, iqtisadi sahələrdə inkişaf edir və onları bir-bir sadalayıb qurtarmaq mümkün deyil. Diplomatik münasibətlərin qurulmasının 25 illiyini qeyd edən iki ölkə arasında 170-dən çox sənəd imzalanmışdır. Bizim əlaqələrimiz xalqlarımızın çoxəsrlik dostluq ənənələrinə, qarşılıqlı hörmətə bağlıdır. Hər iki xalqı bir-birinə bağlayan qırılmaz dostluq telləri mövcuddur.

Sentyabrın 27-də Heydər Əliyev Mərkəzində keçirilən IX Azərbaycan-Rusiya Regionlararası Forumu Azərbaycanın bir daha sülhə, beynəlxalq iqtisadi əməkdaşlığa sadiq olduğunu sübut etdi. Ümumiyyətlə, iki dövlət başçısı mütəmadi görüşlər keçirir, ikitərəfli əlaqələrin bütün istiqamətlərdə dərinləşməsini təmin edən müqavilələr imzalayır. Bu baxımdan iki ölkənin münasibətlərinin əksər sahəni əhatə edən, perspektiv inkişafı müəyyənləşdirən 16 sənədin imzalandığı Soçi görüşü də xüsusi əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyev iki ölkə arasında ticari-iqtisadi əlaqələrin dinamik inkişafını, əmtəə dövriyyəsinin ildən-ilə artmasını, Rusiyanın ölkəmiz üçün idxalda bir nömrəli tərəfdaş olmasını, energetika, neft-qaz sahələrində çox möhkəm əlaqələrin mövcudluğunu münasibətlərin təməl daşı kimi qiymətləndirir.

"Rossneft" ilə SOCAR arasında əməkdaşlıq barədə mühüm sənəd - müqavilə imzalanıb. 20 ildən artıqdır ki, Azərbaycanda "LUKoyl" şirkəti nüfuzlu investor kimi fəaliyyət göstərir. Elektroenergetika sahəsində iki ölkənin enerji sistemləri paralel rejimdə işləyir. Artıq yüksəkgərginlikli elektrikötürücü xəttin ikinci növbəsinin tikintisi ilə bağlı məsələlər də müzakirə edilmişdir. "Şimal-Cənub dəhlizi" ilə ötən illə müqayisədə yükdaşımaların nəqli bu il 100 dəfədən çox artmışdır. Azərbaycanın milli aviaşirkəti isə Rusiyanın müxtəlif şəhərlərinə həftədə 50-dən artıq reyslər təşkil edir. Bu ilin sonuna kimi Azərbaycanı ziyarət edən turistlərin sayının da milyona çatacağı gözlənilir.

Bunlardan başqa, hər iki ölkədə qarşılıqlı ticarət nümayəndəlikləri açılır, Rusiya Federasiyasının təxminən 70 regionu Azərbaycanın regionları ilə əməkdaşlıq edir. Ölkəmizdə Rusiyanın iştirakı ilə təxminən 700-dən artıq birgə şirkət fəaliyyət göstərir, şimal qonşumuzun iqtisadiyyatımıza yatırdığı sərmayələrin ümumi həcmi isə 1,5 milyard dolları keçmişdir. Getdikcə intensivləşən ikitərəfli görüşlər, tərəfləri maraqlandıran biznes layihələrinin birgə müzakirəsi və reallaşdırılması, səylərin koordinasiyası müsbət nəticələr verir.

Bunun sonunda Ermənistanın Rusiya ilə iqtisadi əlaqələrinin perspektivləri hələ də müəmmalıdır. Müəyyən statistik rəqəmlərin mövcudluğuna baxmayaraq, Paşinyan rejimi Rusiya ilə əlaqələri olan sahibkarları sıxışdırır və Qərblə yeni münasibətlər qurmaq niyyətlərini gizlətmir.

Bakı-Moskva-İrəvan üçbucağında diqqət çəkən ciddi amillərdən biri də Kremlin Azərbaycanda və Ermənistanda rus dilinə olan əksqütblü münasibətləri yaxşı başa düşməsi və düzgün qiymətləndirməsi ilə bağlıdır. Azərbaycanda 340-dan çox ümumtəhsil məktəbində rus dili tədris olunur, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin, M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialları, Bakı Slavyan Universiteti fəaliyyət göstərir. Bundan başqa, dövlətə məxsus bütün ali təhsil müəssisələrində rus sektorları mövcuddur. Halbuki həmişə Rusiyaya sədaqət andı içən Ermənistandan bütün ruslar sıxışdırılıb çıxarılıb. Rus dilinə isə, demək olar ki, qadağa qoyulur. Məhz bu baxımdan tolerantlığı ilə seçilən Azərbaycanın şimal qonşusu ilə dostluğu xüsusi əhəmiyyət kəsb edir.

Rusiya Prezidenti Vladimir Putin də Azərbaycanda rus dilinə olan marağı yüksək dəyərləndirir: "Biz bütün bunların hamısını görürük. Prezidentin haqqında dediyi 300-dən çox məktəb, əlbəttə, bazadır, amma ən əsas baza insanların ürəklərində, beyinlərindəndir. Bu, əməkdaşlığa, əlaqələrin qorunmasına və inkişafına aşkar cəhd deməkdir". Vladimir Putinin "Biz bunların hamısını görürük" deməsi isə, çox güman ki, Ermənistanda rus dilinə bəslənilən münasibətlərin dözülməzliyinə işarədir.

Rusiya-Ermənistan münasibətlərinin qonşu ölkənin ictimaiyyətinə bəlli olmayan, gizlədilən çoxsaylı qara səhifələri də mövcuddur. Azərbaycan Prezidenti İlham Əliyevin Sankt-Peterburqa son səfəri məhz Bakı - Sankt-Peterburq - İrəvan üçbucağında həm keçmişə nəzər salmağa, həm də Rusiya Qafqaz münasibətlərində Azərbaycanla Ermənistan arasında təzadlara tarixin prizmasından nəzər salmağa imkan verir.

Azərbaycan-Rusiya dostluğu, Vladimir Putinin dediyi kimi, ayrı-ayrı insanların, fərdlərin ürəyindən keçir. Cəmi bircə nümunə gətirək. XIX əsrdə Naxçıvandan Kəlbalı xanın oğlu Hüseynqulu xan Sankt-Peterburqa saraya hərbi qulluğa götürülür. Hüseynqulu xan "Vəhşi diviziya"nın yaradılmasında iştirak edir və II Nikolayın general-adyutantı vəzifəsinədək yüksəlir. 1917-ci ildə imperator taxt-tacdan imtina etdikdə isə Hüseynqulu xan II Nikolaya məktubunda bircə cümlə yazır: "Əlahəzrət, ölənədək Sizə və taxt-tacınıza sadiqəm. Yolunuzda döyüşməyə hazıram!"

Erməni millətçilərinin uzun illər Rusiyaya içdikləri "sədaqət andları"nın da qısa və natamam xronologiyası mövcuddur. Təəssüf ki, bu nümunələri sədaqət rəmzi kimi təqdim etmək mümkün deyil. Çünki onlar əslində erməni diplomatiyasının "qundaq" siyasətinin mahiyyətini açan terror aktlarıdır. Məsələn, erməni millətçiləri tərəfindən ilk terror aktı 1866-cı il aprelin 4-də rus imperatoru II Aleksandra qarşı törədilmişdir. İrandan Qarabağa köçürülən Qaragözovlar nəslinin nümayəndəsi Dmitri bu əməlinə görə edam edilmişdir. Erməni millətçiləri eyni zamanda Rusiyadan Azərbaycan ərazilərinə köçürülən ruslara da divan tutmuş, xəncərlərlə silahlanaraq ruslara hücum etmiş, sularını kəsmiş, leşlə murdarlamış və hədələmişlər.

Başqa misal: 1897-ci ildə Qafqaz administrasiyasına rəis təyin edilən Q.Qolitsın erməni siyasi partiyalarının Eçmiədzin kilsəsini terror yuvasına çevirdiklərini üzə çıxarmış və 1903-cü ilin 12 oktyabrında imperatorun fərmanı ilə kilsə əmlakının müsadirə edilməsinə nail olmuşdur. Bundan qeyzlənən erməni siyasi partiyaları bütün ermənilərin katolikosu Mkrtıç Xrimyanın rəhbərliyi altında çar məmurlarına qarşı geniş sui-qəsdlərə rəvac vermişdir. Xrimyan özü isə həmin sui-qəsdlərə rəhbərlik etmişdir. Tarixçi Tahir Behbudov belə terror aktlarının sayının 150-yə yaxın olduğunu bildirir.

Paşinyan da öz sələfləri kimi, bu gün Rusiyadan sürüşüb Qərbin boynuna atılır, amma yenə də sədaqətdən, dostluqdan danışır. Biz isə bu müəmmalı dostluğun keçmişini bilməliyik. Şimal qonşumuzun Azərbaycanla gücənən iqtisadi və mənəvi əlaqələri belə qənaətə gəlməyə imkan verir ki, Rusiyada erməni millətçilərinin dostluğunun nədən ibarət olduğunu yaxşı bilirlər.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# "AZƏRBAYCAN" – 100 İstiqlalımızın yadigarı, həmyaşıdı və tərənnümçüsü

# Fitnələrlə döyüşən qələmlər

## Dövrün aktual problemləri "Azərbaycan"ın səhifələrində dolğun əks olunurdu

### Həqiqətin özü, yaxud "bizləri istəməyənlərin qara oyunları"

Ümumiyyətlə, Azərbaycanda ordu quruculuğu işinin gücləndirilməsi, ölkənin müdafiə potensialının artırılması Üzeyir bəyin məqalələrində ana xətt kimi keçir: "Biz hər halda özümüzü qorumalıyıq və hüdudumuzu öylə möhkəm vəziyyətə salmalıyıq ki, hər dəli, qudurmuş soxulub bildiyini, istədiyini yapa bilməsin. Ümumi əhalimizin baxüsus hüdud və yaxınlığında olanların müdafiə və mühafizəsi üçün əlimizdə vasitələr lazımdır ki, hərəkətcə sürətə və fəaliyyətcə də qüvvətə malik olmaqla xalqımızı mütməinülqəlb etsin" *("Azərbaycan", 15 dekabr 1918, № 65).* Bu, xalqın müdafiəsinin möhkəmləndirilməsi ilə bağlı hökumət qarşısında qoyulan tələb idi.

Üzeyir Hacıbəylinin "Azərbaycan" qəzetində dərc edilmiş məqalələri beynəlxalq aləmin Azərbaycanın istiqlalına münasibəti, ölkəmizin Xəzərdə iştirakı, cümhuriyyət hökumətinə müxalif qüvvələrin qeyri-konstruktiv davranışları və s. bu kimi mövzuları da əhatə edir. Yada salaq ki, cümhuriyyət dövründə xarici qüvvələrə bağlı ayrı-ayrı təxribatçı ünsürlər 1828-ci ildə imzalanmış Türkmənçay müqaviləsinə istinad edərək Azərbaycanın Xəzərdə ticarət və hərbi gəmilər saxlamasına əngəl olmağa çalışırdılar. Üzeyir bəy isə "Azərbaycan" qəzetindəki "Əsassız tələb" *("Azərbaycan", 30 oktyabr 1919, № 309)* adlı məqaləsi ilə bu iddianın tam yersiz olduğunu tutarlı dəlillərlə isbata yetirir və xüsusi vurğulayırdı ki, Azərbaycan üçün dəniz məsələsi can məsələsidir: "Bu məsələyə əl vurmaq Azərbaycanın canına toxunmaqdır. Azərbaycan dənizdə hərbi gəmilər saxlamaqla heç kəsi qorxutmaq və heç bir kəsin yerinə təcavüz etmək fikrində deyildir. Onun fikri özünü xarici imperialist və qasiblər tərəfindən müdafiəyə hazır bir halda durmaqdır. Azərbaycanın özgələr yerinə göz dikdiyini heç kəs xəyalına böylə gətirməz. Halbuki özgələrin Azərbaycan torpağı haqqındakı təcavüzkaranə fikri cümləcə məlumdur. Böylə olduğu sırada özünü qurudan mühafizə etmək Azərbaycana borc olduğu kimi, dəniz tərəfindən dəxi müdafiə və mühafizə yolunu əlində saxlamağa var qüvvəsilə səy və qeyrət edəcəkdir".

Bu böyük yazar Azərbaycan Xalq Cümhuriyyətinə münasibətdə bəzi ölkələrin ikili siyasətinə də toxunur. Qəzetin 16 oktyabr 1919-cu il tarixli 298-ci nömrəsində işıq üzü görmüş "İki siyasət" adlı məqaləsində istiqlalımızı tanımış İngiltərə hökumətinin düzgün siyasətini təqdir etməklə yanaşı, Fransanın Azərbaycan və Gürcüstanın müstəqilliyini tanımamasını Birinci Dünya müharibəsində böyük sarsıntılar yaşamış bu ölkənin əsəbi siyasət yürütməsi ilə əlaqələndirir. Qeyd edir ki, ingilislər öz məqsədyönlü siyasətləri sayəsində Qafqazda, İranda, Türkiyədə böyük nüfuz qazanmaqda ikən Fransanın tutduğu yanlış mövqe həmin bölgədə təəccüb doğurur. Belə bir "yanaşmadan əsas itirən tərəf isə yenə də Fransanın özüdür".

Üzeyir Hacıbəylinin müstəqilliyimizi istəməyən xarici qüvvələr tərəfindən Azərbaycanın Muğan bölgəsində törədilən separatçı əməllər, milli komitələr, sosialist firqələri, fəhlə ittifaqları adı altında pərdələnmiş, müasir dillə desək, "5-ci kolon" üzvlərinin milli dövlətçiliyimizə qarşı təxribat əməlləri, AXC hökumətinin gördüyü işləri hər vəchlə gözdən salma cəhdləri barədə fikirləri də son dərəcə maraqlıdır.

O, "Azərbaycan" qəzetində işıq üzü görmüş "Yersiz çıxış" *("Azərbaycan", 3 sentyabr 1919, № 267)* adlı məqaləsində cümhuriyyətin qısa müddətdə gördüyü işləri ümumiləşdirir. Sosialistyönümlü siyasilərin milli hökumətə qarşı qərəzli çıxışlarını nəzərdən keçirir. Yazır ki, qısa müddətdə Qarabağ məsələsini xalqın arzusuna uyğun həll edən, Lənkəran bölgəsini qan tökmədən, heç bir qurban vermədən yabançılar cəngindən qurtaran, Qafqazın digər yerlərindəki islam ümmətinə imkan daxilində əl tutan, ordu quruculuğunu uğurla həyata keçirən, məmləkəti zülmkar və rüşvətxor məmurlardan təmizləməkdə olan, paytaxtda universitet açan, kasıblara 3-4 manata çörək yedirdən, hər yerdə asayişi, əmin-amanlığı bərpa edən, Azərbaycanın bütün insaf sahiblərini rahatlıq və asudəliyə çağıran, xalqın rifahı üçün səmimi-qəlbdən, istirahət nə olduğunu bilmədən çalışan hökuməti və onun rəhbərini bacarıqsızlıqda ittiham etmək ya ağıl və insafdan xali olmaqdır, ya da başqa bir məqsəd güdməkdir.

*(Əvvəli qəzetin 8 dekabr tarixli nömrəsində)*

### Məkrli siyasət

Bütün dövrlərdə həyatı və yaradıcılığı, ədəbi irsi daim insanların diqqət mərkəzində olan görkəmli yazarlardan biri də Yusif Vəzir Çəmənzəminlidir. Onun yaradıcılığında erməni məsələsi hər zaman aktual mövzulardan olub.

Yusif Vəzir heç vaxt siyasətçi olmaq istəməyib. Lakin yollar onu bu axara qovuşdurub. Mübahisələr, keşməkeşli hadisələr, çətinliklər, bəzən hətta böhtan və qalmaqallar gənc yaşlarından Yusifin yaradıcılığını da addımbaaddım, qarabaqara izləyib.

1918-ci ildə Azərbaycanda Xalq Cümhuriyyətinin yaradılması ərəfəsində Y.V.Çəmənzəminli Kiyevdən Bakıya dönür. "Azərbaycan" qəzetində "Xarici siyasətimiz", "Milli və mədəni işlərimiz", "Beynəlxalq əlaqələr" rubrikaları ilə silsilə məqalələr çap etdirməyə başlayır. Artıq həm siyasətçi, həm diplomat, həm də ölkədə gedən proseslərə aydın qiymət verən yazar kimi formalaşan ədib hökumətin ilk yığıncaqlarından birində Türkiyədə Azərbaycan səfirliyinin yaradılması təşəbbüsü ilə çıxış edir. 1919-cu ildə Türkiyədə Azərbaycan səfirliyi yaradılır və Çəmənzəminli oraya səfir göndərilir. İstanbulda diplomatik fəaliyyəti ilə yanaşı, Yusif Vəzir ədəbi yaradıcılıqla da məşğul olur, kitablarını nəşr etdirir.

Y.V.Çəmənzəminli elə sənətkarlardan idi ki, qismətinə üç dövrdə - çar Rusiyası, Azərbaycan Xalq Cümhuriyyəti və sovetlər imperiyası illərində yaşamaq düşmüşdü. Bu dövrlərdə ermənilər tərəfindən törədilən qırğınları izlədiyi, digər tərəfdən bir müddət xarici işlər idarəsində çalışdığı, səfir kimi fəaliyyət göstərdiyi vaxtlarda müxtəlif ölkələrin diplomatik nümayəndələri ilə danışıqlar aparan rəsmi şəxs olduğu üçün bu bədnam millətin azərbaycanlılara, ümumiyyətlə, türklərə qarşı yeritdiyi məkrli siyasətdən çox yaxşı xəbərdar idi. Xüsusilə "Azərbaycan" qəzetində çıxan "Ermənistan və biz", "Əfkari-ümumiyyə", "On beş gün Ermənistanda", "Bolşevik qurğusu", "Elçilər göndərilməlidir", "Qüvvəli istiqlal", "Denikin qurğusu" və s. məqalələrində, "Biz kimik və istədiyimiz nədir" kitabında, "Studentlər" və "Qan içində" romanlarında bəhs etmiş, yeni fikirlər irəli sürmüşdür. Həmin fikirlər bu gün də aktuallığı ilə seçilən tarixi faktlar kimi qiymətləndirilir.

Yusif Vəzir "Əfkari-ümumiyyə"də *("Azərbaycan", 9 iyul 1919, № 220)* yazırdı: "Hankı millət yaşamaq istərsə, öz dərdini söyləməlidir, səsini çıxarmalıdır. Səsini çıxarmağı bilməyən bir millət həmişə əzilər. Səs vasitəsi də qəzetlər və məcmuələrdir. Qonşularımızdan bağırmaları ilə məşhur olanı ermənidir. Bu millət dərdini və tələblərini bildirməkdə böyük istedad sahibidir. Dünyada elə bir qəzetə yoxdur ki, "erməni məsələsi"ni yazmasın. Bundan başqa, özlərinə məxsus bir çox qəzetə və məcmuələri var. Müharibə əsnasında Moskvada rus dilində "Armyanski vestnik" məcmuəsi verilirdi. Bu məcmuə başdan-başa erməniliyi təqdir və tərvic (işə salma) etmək ilə məşğul idi. Məcmuənin fikri ermənini ən mədəni bir millət şəklində Avropaya tanıtmaq idi. Odessada dəxi eyni fikirdə bir qəzetə çıxırdı. Bu gün İstanbulda ermənilərin fransızca qəzetələri var. Tələblərini Avropanın qulağına söyləməkdən çəkinmirlər. Göründüyü kimi, milçəyi fil boyda edən ermənilər hər sahədə özlərinin üstün olmalarına çalışırlar. Bəzən yalanı elə həqiqət kimi qələmə verirlər ki, kənardan baxan bunu gerçək kimi görür". Yusif Vəzir 1919-cu ildə yazdığı bu məqalədə ermənilərin milli məsələ ilə bağlı 900 əsər çap etdirdiklərini bildirir və yazının son abzasında göstərir ki, "bütün müsəlman aləmində əfkari-ümumiyyənin rəğbətini qazanmaq üçün az çalışılır. Onun üçün dərdlərimiz kimsəyə bəlli olmur və biz ilə maraqlanan az olur... Siyasi adamlar məmləkətdən xəbərsiz olduqda, biz ermənilərdən də çox çalışmalıyıq ki, özümüzü tanıdaq".

Çəmənzəminli "Ermənistan və biz" *("Azərbaycan", 13 iyul 1919, № 223)* məqaləsində ermənilərin böyük iddiaları barədə söhbət açır. Yazıda oxuyuruq: "Böyük Ermənistan" xəritəsini gördüm. Üç dəniz arasında təşəkkül edəcək imiş. Ağ, Qara və Xəzər dənizləri arasında xəritədə Gəncə, Lənkəran, Salyan, Təbriz, Marağa və başqa şəhərlər də Ermənistana daxil edilmişdir. Əgər bu xəritə erməni amalının şəklidirsə, onda "erməni məsələsi" yenə bir çox münaqişə və mücadiləyə səbəb olacaq və həlli yenə kağız üzərində qalacaqdır. Halbuki Qafqazda asayişin təmini məsələsinin etnoqrafı dairədə həll olunması ilə mərbutdur (əlverişlidir). Uzun bir təcrübə göstərdi ki, dindaşlıq ilə siyasət arasında böyük bir uçurum var". Böyük demokrat bu yazılarında xalqımıza, millətimizə qarşı ermənilərin bütün məkrli siyasətlərindən xəbərdar olmağı, dünya ictimaiyyətinə çirkin əməllərinin puçluğu və əsassızlığı barədə düzgün məlumat verməyi zəruri hesab edirdi. O, "erməni məsələsi"ndə, hətta elmi dəlillərə söykənib milli təəssübkeşlik hisslərini ən çətin, ən ağır məqamlarda belə qələmə almış, öz sözünü demişdir. Ədib məqalənin bir yerində yazır ki, "Avropa şəhərlərindən birində olarkən bir ermənının cocuğa güllə atdığını qəzetdə oxumuşdur. Ermənidən cinayətin səbəbini soruşduqda demişdir: "Bu cinayət ilə erməni cocuqlarının halından sizi xəbərdar eləyirəm, onları Osmanlıda qırırlar". Belə qəribə informasiyalarla bütün dünya əfkari-ümumiyyəni öz tərəflərinə çəkən ermənilər çox şeyə nail ola bilirlər: "Beynəlxalq aləmdə əfkari-ümumiyyənin öz tərəfinə həllini təmin etmək məqsədilə erməni hoqqabazlarına züy tutanlar belə güman edirlər ki, nə qədər ki bir çox məhkum millət "qəflət" yuxusundan oyanmayıb, onların mövcud hallarında öz xeyirlərinə istifadə etməyə girişmək lazımdır".

Yusif Vəzir Çəmənzəminlinin "Şərq məktubları" rubrikası ilə maraqlı publisistik yazıları da çap olunmuşdur. Həmin silsilə məqalələrdə "Daşnaksütyun" partiyasının çirkin əməlləri, xəyanətkar siyasəti, türk-müsəlman əhalisini beynəlxalq aləmdə hörmətdən salmaq üçün əl atdıqları vasitələr, azərbaycanlılara etdikləri pislikləri, məkrli niyyətləri qələmə alınmışdır. Məqalələrinin birində yazırdı: "Bir vaxtlar qapımızda məzlum-məzlum boyun büküb iş axtaran, sonra da yavaş-yavaş özünə isti yuva düzəldən, nəhayət, əzəli torpaqlarımızda dövlət və digər siyasi qurumlar yaradan ermənilər onlara çörək və yaşayış yeri verən geniş ürəkli, son dərəcə sadəlövh qonşularına, o cümlədən biz azərbaycanlılara etdikləri pislik və xəyanətlərdən utanaraq nə vaxtsa Qafqazdan da, İrəvan və Zəngəzurdan da baş götürüb getməli olacaqlar".

Bolşevik hakimiyyətinə qarşı olan, bu üsul-idarəni daim tənqid edən böyük demokrat bu dövrdə "Azərbaycanın muxtariyyatı", "Biz kimik və istədiyimiz nədir" kitablarını yazır, "Azərbaycan və azərbaycanlılar" məqaləsində ermənilərin bütün şovinist siyasətini açıb göstərir, onların mənfur əməllərinin puçluğu və əsassızlığı barədə geniş danışır.

Azərbaycan ziyalıları arasında xüsusi yeri və mövqeyi olan Y.V.Çəmənzəminli təəssüflər olsun ki, zəmanəsinin bir çox şəxsiyyətləri kimi layiqli qiymətini almamışdır. Yaşadığı dövrün keşməkeşləri onun da həyatından yan keçməmişdir. Yusif Vəzir sürgünlərə göndərilmiş, ən ağır işgəncələrə məruz qalmış, Stalin repressiyasının qurbanı olmuşdur.

### Milli birliyə çağırış

Dövrün görkəmli ziyalılarının erməni məsələsi ilə bağlı hər bir yazısında milli birliyə çağırış mövzusu kəskinliyi ilə seçilirdi. "Azərbaycan"ın siyasi publisistikasında bolşeviklərin və erməni-daşnak qüvvələrinin sinfi mübarizə pərdəsi altında apardıqları qatı millətçilik siyasətinin faciəli və qanlı nəticələri ifşa olunurdu. Ədiblərimiz xalqın mədəni maarifçilik şüurunu inkişaf etdirmək üçün var qüvvələrini əsirgəmirdilər.

"Azərbaycan" qəzetinin rus variantının redaktoru olmuş Şəfi bəy Rüstəmbəylinin bu baxımdan peşəkarlıq məharəti toxunduğu problemlərin prioritetliyini üzə çıxarır, məsələnin mahiyyətini açıb göstərir, həm də onu diqqətdə saxlayır, gedişatını da izləyirdi. Qəzetdə erməni-daşnak quldurlarının Zəngəzurda, Naxçıvanda, Qarabağda azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər, soyqırımları, İrəvanda yaşayan həmyerlilərimizin acı taleyi, onların kütləvi surətdə məhv edilməsi və ata-baba yurdlarından qovulması haqqında çoxlu məqalələr dərc edilirdi. Şəfi bəyin "Düşünmək vaxtıdır" məqaləsində "Daşnaksütyun" partiyasının şovinist, qarşıdurma və terrorçuluq xətti tənqid olunurdu. Müəllif yazırdı: "Bizim üçün vacibdir ki, erməni xalqı, nəhayət, "Daşnaksütyun" partiyasının siyasi avantürasının məhvə məhkumluğunu başa düşsün, nə qədər ki, gec deyil, ondan üz döndərsin, öz qonşuları ilə səmimi və mehriban yaşamaq yoluna qədəm qoysun. Başqa yol onlar üçün daim fəlakətli olacaqdır". Ədib bu məsələnin həlli vaxtının çatdığını, bu barədə düşünməyin vacibliyini diqqətə çatdırırdı.

Maraqlı yazılardan biri də jurnalistin tanınmış ictimai xadim və publisist Əhməd bəy Ağayevlə siyasi hadisələr haqqında müsahibəsidir. "Qafqazın gələcəyi" bölməsində Şəfi bəyin həmsöhbəti deyir ki, Qafqaz xalqlarının hər birinin öz varlığını digərlərindən təcrid olunmuş halda qoruyub saxlaya biləcəkləri barədə fikir irəli sürənlər çox səhv edirlər. Onlar yalnız birlikdə böyük qüvvə yarada bilərlər. Daha sonra müsahibədə Azərbaycan və Rusiya münasibətlərinə toxunulur. Xüsusi vurğulanır ki, yurdumuzda rus xalqına, o cümlədən burada yaşayan ruslara qarşı heç bir düşmənçilik hissi yoxdur. 1918-ci il noyabrın 4-də qəzetdə "İrəvan quberniyasında müsəlmanların vəziyyəti" sərlövhəli yazı dərc olunur. Məqalədə özlərini Azərbaycanın bir hissəsi hesab edən İrəvan müsəlmanlarının nümayəndə heyətinin Bakıya gəlişi barədə məlumat verilir. Onların yaşayışı, iş şəraiti təhlil edilir. Azərbaycan hökumətindən müsəlmanların təhlükəsizliyi üçün tədbirlərin görülməsini, Ermənistanla danışıqlar apararaq İrəvanda yaşayan türklərin öz yerlərinə qaytarılmasını xahiş edirlər.

1918-ci il noyabrın 13-də Şəfi bəyin digər bir yazısı oxuculara təqdim olunur: "Azərbaycan Milli Şurasının çağırılmasına dair". Yazıda Azərbaycanın o vaxtkı ictimai-siyasi durumu açıqlanır və ona qiymət verilirdi. Şəfi bəy göstərirdi ki, söhbət Tiflisdə yaradılan Milli Şuranın fəaliyyətindən gedir. Onun yaradılması ölkədə anarxiyanın zirvə nöqtəsinə çatdığı, Bakının bolşevik-daşnak quldurları tərəfindən ələ keçirilməsi ilə bir vaxta düşmüşdür. Məqalədə erməni məsələsinə xüsusi diqqət yetirilmiş və Milli Şuranın Azərbaycanın siyasi həyatında gördüyü işin çətinliyi barədə geniş məlumat verilmişdir: "Zaqafqaziya Seymi çağırılarkən bolşeviklər və daşnaklar Bakıda dərin kök salmış, milli təşkilatlarımızın hər cür ictimai və siyasi fəaliyyətini iflic etmişdir. Buna müəyyən dərəcədə daxili çəkişmələr və partiyalar arasında fikir ayrılıqları da səbəb olmuşdur... Zaqafqaziya Seyminin və onunla birlikdə qısa müddətdə fəaliyyət göstərmiş Müsəlman Milli Şurasının mövcudluğu dövrü Zaqafqaziya ilə Osmanlı imperiyası arasında münasibətlərin tənzimlənməsinə həsr olunmuşdur. Hökm sürən anarxiya səbəbindən öz xalqından ayrı düşmüş Müsəlman Milli Şurası özünün siyasi fəaliyyəti və inadkarlıqla həyata keçirdiyi planlar barədə seçicilərini məlumatlandırmaq imkanından məhrum olmuşdur. Bundan əlavə, siyasi nöqteyi-nəzərdən və o vaxtkı şərait səbəbindən bir çox məsələlər geniş açıqlanmırdı. Həmin vaxt xalq instiktiv olaraq özünün fiziki mövcudluğunun xilası üçün xarici real qüvvəyə ehtiyac duyurdu. Xalqın nəzərləri qardaş Osmanlı ordusu tərəfinə yönəlmişdi. O öz xilasını Osmanlı əsgərlərdə görürdü".

Məqalədə, həmçinin çox narahatlıqla vurğulanırdı ki, Tiflisdə müsəlman fraksiyası ağır və düşmənçilik atmosferi mühasirəsində idi - erməni və gürcü rəhbərlər müsavatçıları Osmanlı imperiyasının casusları kimi qələmə verir və dəfələrlə Zaqafqaziya Seyminin tribunasından onları satqın adlandırırdı. Bütün böyük siyasi, xüsusilə beynəlxalq məsələlər müsəlman fraksiyasından, hətta hökumətin müsəlman üzvlərindən gizli şəkildə həll edilirdi... Bu analitik məqalədə dövrün salnaməsi məntiqli, uzaqgörən şərhlərlə açıqlanırdı.

Ümumiyyətlə, Şəfi bəyin siyasi fəaliyyəti və yüksək səviyyəli məqalələri, verdiyi çoxsaylı şərhlər onun hazırlıqlı siyasi xadim olduğunu göstərirdi. O, azərbaycançılıq ideyasının inkişafında mühüm rol oynayan yaradıcı ziyalılarımızdan biri, ömrünün sonunadək xalqının istiqlalı uğrunda mübarizə aparan vətən fədailərindən idi.

### Unudulmayan faciə, acı həqiqətlər

Xalqımız üçün ümumi faciəyə çevrilmiş 1918-ci il mart qırğınları haqqında o dövrün bütün mütərəqqi ziyalıları bəyanatlar, müraciətlər vermiş, onlarla, yüzlərlə məqalə və publisistik oçerklər yazmışlar. Özü də bu əsərlər ictimai ziddiyyətlərin kəskinləşdiyi, mübarizələrin son dərəcə gərgin olduğu bir dövrdə qələmə alınmışdır. 31 mart hadisələri xalqımızın qan yaddaşıdır. Həmin yazılarda uzun illər gizli saxlanılan, üzərinə qadağalar qoyulan həqiqətlər açılıb göstərilmiş, vəziyyəti ağırlaşdıran əsas amillər meydana çıxarılmışdır. "Vətəndaş müharibəsi", "əksinqilabi qiyam" kimi saxtalaşdırılan mart hadisələri əslində bolşevik-daşnak ittifaqının xalqımıza qarşı yeritdiyi soyqırımı siyasəti idi.

Xatırladaq ki, o dövrdə bolşeviklər hər cür demokratik şüarlarla pərdələnsələr də, azərbaycanlıların milli maraqlarına qətiyyən cavab vermirdilər. Bu hərəkatın rəhbərliyində bolşeviklərin və ermənilərin çoxluq təşkil etməsi əhalinin milli mənafeyinə qarşı böyük təhdidlər yaradırdı. Hadisələrin sonrakı gedişatı bu ehtimalı doğrultdu. Ermənilər tərəfindən istiqamətləndirilən bolşevizm Azərbaycan xalqına sonsuz qırğınlar və fəlakətlər gətirdi.

"Azərbaycan" qəzetinin 1919-cu il 31 mart tarixli nömrəsi bütünlüklə 1918-ci il azərbaycanlıların soyqırımı mövzusuna həsr edilmişdi. Xüsusi buraxılışda Hacıbəyli Üzeyir imzası ilə çıxan "31 mart" redaksiya yazısı həmin hadisələrin təhlilini vermiş, istiqlalımıza qarşı rus bolşevizminin sui-qəsdini açıb göstərmiş, "qrajdanski" və bir də milli olmaq üzrə "iki rəngli müharibə salıb çaylarca qanlar axıtdığını, milyonlarca bəşər övladını təlef etdiyini, "evlərin viranə qoyulduğunu" güclü bədii dildə qələmə almışdır. Bu məqalə həmin hadisələrə həsr olunmuş klassik nümunələrdən sayılır. Yazıda oxuyuruq: "Keçən keçdi, olan-oldu. Mart hadisatı Azərbaycan tarixində mühüm bir səhifə işğal edib azəri türklərinin istiqlal yolunda can verib, qan tökdüklərini gələcək nəslə oxutduracaqdır. Bugünkü vəzifəmiz isə o qara günləri yaddan çıxarmamaq və buna görə də həmişə və hər an hazır olmaqdır. Böylə hazırlıq ki, bu hadisələr bir də təkrar edərsə, müdafiəsinə qadir olalım".

Elə həmin nömrədə çıxan "Mart hadiseyi-əliməsinin müxtəsər tarixçəsi" sərlövhəli məqalədə Şaumyanın, Saakyanın və Arekyanın rəhbərlik etdikləri dəstənin Şamaxıda törətdikləri qırğınlar barədə ətraflı məlumat verilir. Bu xəbərin Bakıda güclü təşviş doğurduğu göstərilir, insanlar erməni vəhşiliklərini heyrətlə qarşılayırlar.

Qəzetin xüsusi nömrəsində yer alan dövrün tanınmış mühərrirlərindən olan Xəlil İbrahimin "18-31 mart" adlı yazısında isə matəm günü münasibəti ilə şəhərdə dolaşan ab-hava və görülən tədbirlər ətraflı təsvir edilirdi.

Ə.Bədi imzası ilə "Acı həqiqətlərim" adlı bir məqalədə müsəlman nümayəndələrinin "İsmailiyyə" binasında və Təzəpir məscidində keçirilən toplantıları barədə geniş məlumatlar verilirdi. A.Rüfət imzası ilə şıxan "El yazı" adlı xatirə-esse emossional təsir gücünə malik idi və oxucuların böyük marağına səbəb olmuşdur. "Keçmiş mart günləri" adlı başqa bir məqalədə isə bolşevik libasına bürünmüş erməni əsgərlərinin əsas hədəfinin məhz türk-müsəlman əhalisinin olduğuna diqqət çəkilirdi. Əli Əsgər Ələkbərzadənin "İthaf" adlı məqaləsi mart qırğınları günlərində həlak olmuş şəhidlərə həsr edilirdi. Bundan başqa, mart hadisələri ilə bağlı Əlimərdan bəy Topçubaşovun, Ceyhun Hacıbəylinin, Şəfi bəy Rüstəmbəylinin, Mirzəbala Məmmədzadənin, Əli Şövqinin, Əmin Abidin, Fərhad Ağazadənin və başqalarının məqalələrində 1918-ci il faciələrini törədən səbəblər, onun əsas "oyunçuları", "qurbanları", kütləvi qırğınların həyata keçirilməsində əsas məqsədlər, onların nəticələri araşdırılır, həmin günlərin canlı mənzərəsi yaradılır.

### İşıqlı zəkaların aydınlatdığı yol

Fitnələrlə döyüşən qələmlər çarpışmalardan, tufanlardan, fırtınalardan keçmiş, xalqın azadlıq mübarizəsinə xidmət etmiş, zamanın qaranlığını, zülmünü, məşəqqətlərini açıb göstərmiş, insanları fitnə-fəsadlardan qorumuşdur. Nadana, zülmkara, "bir arxın suyunu min arxa calayan", məsləkini tez-tez dəyişənlərə qarşı soyumaz qəzəb, nifrət, hiddət onların yaradıcılığının ifadə gücünü, əsasını təşkil etmişdir.

Bu işıqlı zəkalar insanlığın gələcəyinə inanırdılar.

Publisistika daim hərəkətdə olan, həyatın hazırkı vəziyyətini əks etdirən, vacib suallara cavab verən canlı bir janrdır. Burada həm də elə publisist əsərlər əhəmiyyətli və qiymətli sayılır ki, onlar gündəlik mübarizələrin içində həyatın canlı axınında ən zəruri məsələləri əks etdirir, zamanın ziddiyyətləri içərisində itib qalmır, həqiqətləri görür və müdafiə edir, mürtəce fikirlərə, həris duyğulara, alçaq hisslərə əsir olmur. O dövrün görkəmli ziyalı simalarının publisist əsərlərinin çoxu məhz bu cür yazılardır. Onlar mütərəqqi ruhda qələmə alınmış, mühüm məsələlərə toxunmuş, suallara düzgün cavablar vermişlər. Doğma xalqının böyük vətənpərvərləri Üzeyir bəy, Ceyhun bəy, Şəfi bəy, Yusif Vəzir, Xəlil İbrahim, Əmin Abid, Fərhad Ağazadə və başqaları o xoşbəxt ictimai-siyasi xadimlərdəndir ki, zaman keçdikcə bu insanların böyüklüyü, fəaliyyətlərinin mütərəqqi və humanist mənası daha parlaq şəkildə gözə dəyir. Həmin şəxsiyyətlərin zəngin irsi diqqəti bütün zamanlarda daha çox cəlb edir və dərin mənası ilə bizi daim heyran qoyur.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Budapeştdə "Azərbaycan Paris Sülh Konfransında" adlı kitabın təqdimatı olub

Azərbaycanın Macarıstandakı səfiri Vilayət Quliyevin macar, ingilis və fransız dillərində nəşr olunmuş "Azərbaycan Paris Sülh Konfransında" adlı kitabının təqdimatı olub.

Məşhur macar türkoloqu, akademik Cörc Xazainin ev muzeyində keçirilən tədbirdə türkoloq alimlər, Macarıstan Xarici İşlər və Ticarət Nazirliyinin nümayəndələri, bu ölkədə akkreditə olunmuş diplomatik korpusun, yerli ictimaiyyətin, Azərbaycan diasporunun təmsilçiləri, azərbaycanlı tələbələr, yerli jurnalistlər iştirak ediblər.

Akademik Cörc Xazainin qızı, Cörc Xazai Türkoloji Kitabxanasının təsisçisi və direktoru Sesiliya Xazai tədbiri açaraq 2018-ci ilin Azərbaycan Demokratik Respublikasının 100 illik yubileyi ilə əlamətdar olduğunu bildirib. O, müstəqilliyini iki ilə yaxın bir müddət ərzində qoruyub saxlaya bilmiş Azərbaycan Demokratik Respublikasının tarixi ilə bağlı dəyərli tədqiqatlar aparan səfir Vilayət Quliyevin bu istiqamətdə növbəti kitabının macar dilinə tərcümə edildiyini diqqətə çatdırıb və həmin kitabın təqdimat mərasiminin təsisçisi olduğu Xazai Kitabxanasında təşkil olunmasından məmnunluğunu ifadə edib.

Sonra səfir Vilayət Quliyev çıxış edərək Azərbaycan Demokratik Respublikasının fəaliyyəti barədə məlumat verib. O, həmin dövrdə çox böyük çətinliklər qarşısında qalan respublikanın paytaxtı Bakının erməni-bolşevik işğalı altında olduğunu, buna baxmayaraq, 100 il əvvəl dekabrın 7-də müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycanın parlamentinin birinci iclasının keçirilməsinə nail olunduğunu diqqətə çatdırıb. 80 azərbaycanlının, o cümlədən ölkədəki bir çox xalqların nümayəndələrinin də təmsil olunduğu 120 yerlik parlamentin 1920-ci il aprelin 27-dək - bolşevik işğalına qədər fəaliyyət göstərdiyini qeyd edən səfir qısa müddət ərzində qanunverici orqanın 145 iclas keçirdiyini və 300-dək qanun layihəsinə baxıldığını vurğulayıb, məhz bu qanunların Azərbaycanın müstəqil dövlət kimi ayaq üstə durmasına təkan verdiyini bildirib.

O dövrdə gənc respublikanın beynəlxalq miqyasda tanınması üçün bütün imkanlardan istifadə edildiyini və nəticədə ölkənin de-fakto tanındığını bildirən səfir müəllifi olduğu kitabda Paris Sülh Konfransına ezam edilmiş Azərbaycan Demokratik Respublikasının nümayəndə heyətinin bu istiqamətdə keşməkeşli və şərəfli fəaliyyəti barədə məlumatların yer aldığını qeyd edib.

Daha sonra Macarıstan Türkoloji Araşdırmalar Fondunun sədri, Macarıstanın Türkiyədəki sabiq səfiri Yanoş Hovari çıxış edərək Qurban Səidin "Əli və Nino" romanına istinad edib. Həmin kitabdan sitatlar səsləndirən natiq o dövrdə öz müstəqilliyini qurmuş Azərbaycan xalqının necə böyük ruh yüksəkliyi keçirməsinin həmin kitabda təsdiqini tapdığını bildirib. Səfir V.Quliyevin müəllifi olduğu "Azərbaycan Paris Sülh Konfransında" kitabının o dövrkü hadisələrə işıq salması baxımından əhəmiyyətli bir araşdırma olduğunu deyən Yanoş Hovari bu kitabın macar tədqiqatçıları tərəfindən maraqla qarşılanacağını bildirib.

Türkiyənin Macarıstandakı səfiri Akif Oktay Azərbaycan Demokratik Respublikasının keçdiyi şərəfli yol barədə fikirlərini bölüşüb və gənc respublikanın mövcud olduğu qısa və çətin dövrdə türklərin azərbaycanlı qardaşlarının yanında olduğunu vurğulayıb. Azərbaycan Demokratik Respublikasının qadınlara seçki hüququ verdiyini deyən səfir o dövrdə belə bir hüququn nəinki Türkiyədə, hətta inkişaf etmiş Avropa ölkələrində də hələ tanınmadığını qeyd edib.

Kitabın tərcüməçisi Tamaş Varheci nəşr barədə fikirlərini bildirib, tərcümə prosesində Azərbaycan Demokratik Respublikasının fəaliyyəti ilə bağlı maraqlı faktlarla qarşılaşdığını diqqətə çatdırıb. O, kitabın macar oxucularının diqqətini cəlb edəcəyinə əminliyini ifadə edib.

Təqdimat mərasimi yerli kütləvi informasiya vasitələrində işıqlandırılıb.

***AZƏRTAC***

# "Azərmarka" MMC cümhuriyyətin 100 illiyinə həsr olunan marka kitabı nəşr edib

"Azərmarka" MMC Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan "Azərbaycan. 1918-2018" marka kitabı nəşr edib. AZƏRTAC xəbər verir ki, "BakuTel-2018" XXIV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisində "Azərbaycan. 1918-2018" və "Mənim Bakım" kitablarının təqdimatı keçirilib. "Azərbaycan. 1918-2018" marka kitabı bu il ərzində 100 illiyi qeyd edilən əlamətdar hadisələrə həsr edilib.

"Mənim Bakım" kitabına tanınmış fotoqraf Sənan Ələskərovun fotoları toplanıb. Kitaba Azərbaycan paytaxtının fərqli rakurslarda çəkilmiş fotoları ilə yanaşı, 4 ədəd poçt bloku da daxil edilib.

Mövzu zənginliyi və nəfis tərtibatı ilə seçilən kitablar ölkəmizin təbliği baxımından xüsusi əhəmiyyətə malikdir.

"Azərmarka" MMC-nin "BakuTel-2018"dəki stendində Azərbaycan Demokratik Respublikasının yaranması, Azərbaycan qadınına seçki hüququnun verilməsi, Silahlı Qüvvələrin yaranması, Bakının erməni və bolşevik işğalından azad olunması, Dövlət bayrağı, Xalq Cümhuriyyəti Parlamentinin və Azərbaycan poçtunun yaranması kimi hadisələrə həsr olunmuş poçt markaları nümayiş etdirilib. Stenddə, həmçinin müxtəlif cür filateliya və promo məhsulları təqdim olunub.

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 28 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini 28 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Ağdam, Koxanəbi, Əsrik Cırdaxan kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

Elm xadimləri

# Əsl ziyalı, böyük alim

Onun böyüklüyü ziyalılığında idi. Müdrik alim, azad insan idi. Fikrini aşkar deməyi bacarırdı. Görkəmli tədqiqatçı, xeyirxah və ləyaqətli müəllim idi. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, əməkdar elm xadimi, professor Aqil Əliyev zirvədə duran alimlərdən idi. O, elmlə ucalmış, zəngin yaradıcı fəaliyyəti ilə ölkəmizin inkişafına xidmət etmişdir.



Daim zəhmətə qatlaşmağa, yalnız özünə, əməyinə güvənməyə, insanlara qayğı və həssaslıqla yanaşmağa, imkansız və kimsəsizlərə arxa olmağa, onlara kömək və əl tutmağa, sadə və təvazökar həyat sürməyə üstünlük vermiş, şan-şöhrətdən və bayağılıqdan uzaq olmuşdur. Bu keyfiyyətlər onu adi institut laborantlığından iqtisad elmləri doktoru, professor, kafedra müdiri vəzifəsinə və Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvlüyünədək yüksəltmişdir.

A.Əliyev 1951-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) Tarix fakültəsini bitirmiş, elmi və tədris işlərinə olan marağı onu əvvəlcə Azərbaycan Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunda, Politexnik İnstitutunun Siyasi iqtisad kafedrasında işləməyə, sonradan isə ömrünün axırınadək Azərbaycan Dövlət Tibb Universitetinin Siyasi iqtisad kafedrasında çalışmağa gətirib çıxarmışdır. Tədris işinə, böyük elmə qovuşmaq həvəsi və ürəkdən bağlılığı onu bütün şüurlu həyatını ali məktəbdə müəllimlik etmək, gənclərin təlim-tərbiyəsi ilə məşğul olmaq və elmi yaradıcılıq işləri aparmaq kimi çox çətin, mürəkkəb və eyni zamanda müqəddəs bir vəzifənin yerinə yetirilməsinə həsr etməyə sövq etmişdir. A.Əliyev 1970-ci ildə namizədlik, 1983-cü ildə isə doktorluq dissertasiyalarını müdafiə etmişdir. Ona 1973-cü ildə dosent, 1979-cu ildə professor elmi adı verilmişdir.

Professor A.Əliyev yüksəkixtisaslı iqtisadçı və tibb kadrlarının hazırlanması sahəsindəki əvəzsiz xidmətlərinə görə 1982-ci ildə respublikanın əməkdar elm xadimi adına layiq görülmüşdür. O, 1996-cı ildə Beynəlxalq Enerji-İnformasiya Elmlər Akademiyasının Azərbaycan bölməsinin həqiqi üzvü, 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2003-cü ildə isə Beynəlxalq Menecment Akademiyasının akademiki seçilmişdir. Bu illər ərzində böyük vəzifələr tutmaq imkanlarına malik olmasına baxmayaraq, Aqil Əliyev həmişə şan-şöhrətdən uzaq olmuş, müəllimlik etməyə, kadr hazırlığı ilə məşğul olmağa, elmi-tədqiqat işləri aparmağa və öz intellektual inkişaf səviyyəsini artırmağa üstünlük vermişdir.

Professor A.Əliyev 53 il Azərbaycan Dövlət Tibb Universitetində çalışmışdır. Əvvəlcə Siyasi iqtisad kafedrasında kabinet müdiri, müəllim, dosent, professor və kafedra müdiri vəzifəsində işləmiş, sonra isə İqtisadi nəzəriyyə və hüququn əsasları kafedrasına rəhbərlik etmişdir. Bütün bu illər ərzində professorun rəhbərliyi ilə kafedrada yüksək səviyyədə tədris və elmi-tədqiqat işləri aparılmışdır. Təsadüfi deyil ki, Azərbaycan Tibb Universitetinin Siyasi iqtisad kafedrası uzun illər boyu Tibb Universitetinin ən yaxşı kafedrası fəxri adına layiq görülmüş və kollektivin işi əsl nümunə məktəbinə çevrilmişdir.

Çox təəssüflər olsun ki, 1988-1992-ci illərdə Azərbaycana "rəhbər" vəzifələrə təyin edilmiş bəzi insanlar və onların xoşuna gəlmək üçün Tibb Universitetinin üzdəniraq iradəsiz rəhbərləri professor Aqil Əliyevə qarşı haqsızlıqlar etmişlər. 1987-ci ildə ulu öndər Heydər Əliyev Sov. İKP Siyasi Bürosu üzvlüyündən və SSRİ Nazirlər Sovetinin birinci müavini vəzifəsindən uzaqlaşdırıldıqdan sonra şər qüvvələrin gizli hücumları açıq şəkildə həyata keçirilməyə başlandı. Bu şər qüvvələr bütün Əliyevlər nəslinə hücuma keçdilər. Bu hücumlarda mərkəzi nöqtədə akademik Cəlal Əliyev olsa da, onun böyük qardaşlarından biri - Aqil Əliyev də nəzərdən qaçmamışdı. Həmin illərdə heç bir əsas olmadan, respublikamızın tarixində ilk dəfə olaraq 62 yaşlı professor Aqil Əliyev Azərbaycan Tibb Universitetinin Siyasi iqtisad kafedrasının müdirliyindən istefaya göndərildi. Ancaq bu haqsızlıqlar nə akademik Cəlal Əliyevin, nə də Aqil Əliyevin şəxsiyyətini sındıra bildi. Çox keçmədi ki, ədalət zəfər çaldı, haqq öz yerini tutdu və Aqil Əliyev yenidən öz əvvəlki iş yerinə qayıtdı. Ancaq bu dəfə kafedra müdiri kimi deyil, professor kimi. Çünki artıq Siyasi iqtisad kafedrasının da adı dəyişdirilib başqa kafedraya birləşdirilmişdi. Bir neçə il sonra həmin kafedra İqtisadi nəzəriyyə və hüququn əsası adı altında yenidən bərpa edildi və Aqil Əliyev həmin kafedraya müdir seçildi. Professor yenidən əvvəlki həvəs və işgüzarlıqla həmin kafedraya rəhbərlik etməyə və səmərəli elmi-tədqiqat işləri ilə məşğul olmağa başladı.

Görkəmli alimin apardığı elmi-tədqiqat işləri çoxşaxəli olsa da, onun elmi yaradıcılığında əsas yeri sosial-iqtisadi problemlər, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, şəhər və kənd əhalisinin yaşayışının bir-birinə yaxınlaşması qanunauyğunluqları və yollarının öyrənilməsi, ərzaq və təchizat problemlərinin həlli, səhiyyənin iqtisadiyyatı, əhalinin sağlamlığının sosial-iqtisadi və demoqrafik inkişaf aspektlərinin tədqiqi və s. tutur. Bu problemlər onun 190-dan çox elmi-tədqiqat əsərlərində, o cümlədən 18 sanballı monoqrafiya və kitablarında, 6 dərslik və dərs vəsaitində, 6 tədris-metodiki göstəricidə öz əksini tapmışdır.

Professor Aqil Əliyev iqtisad elminin təkcə nəzəri və metodoloji əsaslarının tədqiqi ilə kifayətlənməmişdir. O öz tədqiqatlarında, xüsusilə də doktorluq dissertasiyasını həsr etdiyi və keçən əsrin 60-70-ci illərində öz aktuallığı ilə seçilən və böyük mübahisələrə səbəb olması ilə yadda qalan çətin bir mövzuda yazdığı "İnkişaf etmiş sosializm cəmiyyətində şəxsi istehlak problemləri" adlı monoqrafiyasında keçmiş SSRİ-də ilk dəfə olaraq xidmət sahəsində əməyin xarakteri, bu istiqamətin cəmiyyətin həyatındakı rolu və yeri verilmiş, xidmət sahəsinin mahiyyəti, məzmunu, onun quruluşu, əsas göstəriciləri müəyyən edilmiş, bu sahədə mövcud olan bir çox anlayışlara aydınlıq gətirilmişdir. Onun əsərlərində pərakəndə ticarət, əhalinin qeyri-istehlak malları ilə təmin edilməsində baş verən əsas dəyişikliklər və yeni meyillər, əhalinin istehlakına təsir edən amillər təhlil edilib qiymətləndirilmiş və elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr işlənib hazırlanmışdır. Aqil müəllimin həmin əsəri keçmiş SSRİ-nin iqtisadçı alimlərinin böyük marağına səbəb olmuşdu. Onun apardığı tədqiqatlar keçən əsrin 70-ci illərində və 80-ci illərin əvvəllərində ən nüfuzlu elm dairələrində mübahisə və müzakirə obyektinə çevrilmiş və görkəmli iqtisadçı alim kimi nüfuzunu daha da artırmışdı. Qeyd edilən dövrdə professor Aqil Əliyev keçmiş İttifaqda xidmətlərin istehsalı və istehlakı sahəsində əsaslı tədqiqatlar aparan görkəmli iqtisadçı alim hesab edilmiş və həmkarlarının hüsn-rəğbətini qazanmışdı.

Professor A.Əliyev 1979-1989-cu illərdə Azərbaycan Respublikasında elmi-texniki tərəqqi və onun sosial-iqtisadi nəticələri üzrə "Əhalinin sağlamlığının qorunması" problem komissiyasının sədri olmuş, yerinə yetirilmiş tədqiqat işləri Azərbaycanın 1980-2000-ci və 1986-2005-ci illər üzrə nəzərdə tutulmuş elmi-texniki tərəqqi və onun sosial-iqtisadi nəticələrinin kompleks proqramına və bu sahədə keçmiş SSRİ-də hazırlanmış elmi-texniki tərəqqi və onun sosial-iqtisadi nəticələrinin kompleks proqramına daxil edilərək Moskvada və Bakıda nəşr olunmuşdur. Onun bir çox əsərləri iqtisad elmi ilə məşğul olan mütəxəssislərin, müəllim və tələbələrin stolüstü kitabına çevrilmişdir. Professor Aqil Əliyevin əsərlərinin xeyli bir qismi xarici ölkələrdə çap edilmişdir.

Alimin tədqiqatları Moskvada, Sankt-Peterburqda, Çexiya, Slovakiya və başqa ölkə və şəhərlərdə yaşayan iqtisadçı alimlərin diqqətini cəlb etmiş və onların əsərlərində onun kitablarına çoxlu istinadlar edilmişdir. Professorun çap etdirdiyi əsərlər arasında müasir dövr və bazar iqtisadiyyatına keçidlə bağlı tədqiqatlar xüsusi yer tutur. Bu sahədə onun 80-ə yaxın əsəri çapdan çıxmışdır. Həmin əsərlər arasında onun çap etdirdiyi "Azərbaycanın sosial-iqtisadi inkişafında islahatların rolu", "Azərbaycanda bazar münasibətləri şəraitində əhalinin sosial problemləri", "İpək yolunun bərpası bəşəriyyətin tərəqqi yoludur", "Səhiyyənin iqtisadiyyatı", "Azərbaycanda əhalinin həyat səviyyəsinin yüksəldilməsinin aktual problemləri", "Naxçıvan qədim diyardır", "Milli iqtisadiyyatımızın aktual problemləri", "Özəlləşdirmə və sahibkarlıq fəaliyyətinin inkişafı"; "Dünya iqtisadiyyatı, müasir dövlətin problemləri"; "İnnovasiya və investisiya" (rus dilində - Moskva); "Demokratikləşmə - milli iqtisadiyyatımızın inkişafının əsasıdır", "Naxçıvan Muxtar Respublikası (nailiyyətlər və problemlər)" adlı ikicildlik ensiklopedik əsər və s. xüsusi yer tutur. Burada bir daha qeyd etmək istərdim ki, professor Aqil Əliyevin doktorluq dissertasiyası kimi müdafiəyə təqdim etdiyi və onun müdafiəsindən xeyli əvvəl rus dilində nəşr olunmuş "İnkişaf etmiş sosializm şəraitində şəxsi istehlak problemləri (Regional inkişafın nəzəriyyə və praktikası)" adlı monoqrafiyası *(Bakı, "Azərnəşr", 1982-ci il)* bu gün də çox aktualdır və öz elmi-nəzəri əhəmiyyətini itirməmişdir, dəyərli tədqiqat əsəri kimi mütəxəssislərin və elmi-tədqiqat işçilərinin stolüstü kitablarından biri kimi diqqəti cəlb edir. Aqil Əliyev elmi-pedaqoji institutların və universitetlərin tələbələri üçün yazılmış "İqtisadi nəzəriyyə" kursu üzrə ikicildlik dərsliyin də müəlliflərindən biridir.

Professor A.Ə.Əliyev bir sıra beynəlxalq və respublika əhəmiyyətli elmi-praktik konfranslarda, simpoziumlarda və seminarlarda fəal iştirak edərək Azərbaycanın iqtisad elmini layiqincə təmsil etmişdir. Onun kadr hazırlığı sahəsində böyük xidmətləri vardır. Aqil müəllimin bilavasitə rəhbərliyi vəköməyi ilə iqtisad elmi sahəsində xeyli sayda elmlər doktoru və elmlər namizədi hazırlanmışdır. Professor Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun Elmi Şurasının və burada fəaliyyət göstərən İxtisaslaşdırılmış Doktorluq Dissertasiya Şurasının, habelə Azərbaycan Dövlət Tibb Universitetinin Elmi Şurasının, Beynəlxalq Ekoenerji Akademiyasının həqiqi üzvü, Beynəlxalq Menecment Akademiyasının həqiqi üzvü və Beynəlxalq İqtisadçılar İttifaqının üzvü olmuşdur. Elmi fəaliyyəti və yüksəkixtisaslı tibb kadrları hazırlığındakı xidmətlərinə görə A.Əliyev dövlətimiz tərəfindən əməkdar elm xadimi fəxri adına layiq görülmüş, "Şöhrət", "Qırmızı Əmək Bayrağı" ordenləri, "Səhiyyə əlaçısı" döş nişanı, bir sıra medal, fəxri fərman və tərifnamələrlə təltif olunmuşdur.

Professor Aqil Əliyev 2008-ci ilin baharında, ömrünün müdriklik çağında - 80 yaşının tamam olmasına 6 ay qalmış dünyasını dəyişmişdir. O, səmimi, xalqına, ailəsinə, dostlarına və həmkarlarına bağlı olan mərd bir insan, əsl azərbaycanlı idi.

AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor, əməkdar elm xadimi Aqil Əliyevin əməli işləri onun tələbələri, dostları və həmkarları tərəfindən layiqincə davam etdirilir. Aqil müəllim Allahın hər kəsə bəxş etmədiyi böyük ürəyə, insanlığın ən yüksək göstəricisi olan səmimiyyətə, sadəliyə və mərdliyə, hamını dinləmək, onlara yardım əli uzatmaq bacarığına malik bir insan idi. Əsl ziyalı və böyük vətəndaş alim idi.

***Şahbaz MURADOV,***
***AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor***

# Virtual ensiklopediya

## Vikipediya qlobal məlumat bazasına və sosial şəbəkəyə çevrilib

*Əvvəli 1-ci səh.*





### Cəld və bildiyimiz qədər...

Dünyanın 300-ə yaxın dilində yayımlanan vikipediya virtual, açıq ensiklopediyadır. Könüllülər tərəfindən zənginləşdirilən bu resursa dünyada internetə çıxışı olan hər bir kəs daxil olaraq səhifələrdə dəyişiklik apara bilər. Vikipediya yalnız bilik mənbəyi deyil, həm də nəhəng sosial şəbəkədir. Və beləliklə, dünyada yeni bir cəmiyyətin - vikicəmiyyətin yaranmasına təkan verib.

Vikipediyanın yaradıcıları Cimmi Ueyls və Larri Sanger biliklərini paylaşmaq istəyən insanların birgə təşəbbüsü ilə dünyanın ən dolğun internet ensiklopediyasını yaratmaq qərarına gəlirlər. 2001-ci ilin yanvar aynın 10-da vikipediyanın ilk bölməsi işıq üzü görür. Bundan 5 gün sonra vikipediya müstəqil sayt kimi fəaliyyətə başlayır.

Qısa müddətdə dünyanın ən məşhur 25 internet saytı sırasına daxil olan vikipediya 100-dən çox dildə olan "Vikimedia Fondu" tərəfindən yaradılmış onlayn ensiklopediyadır. Onun əsas tələbi yazılan məqalələr və əlavə edilən məlumatların qərəzsiz olmasıdır.

Vikipediya sözünün mahiyyəti barədə bir neçə versiya var. Bəzi iddialara görə, havaylıların dilində "wiki" (wihiwihi) sözü "tez", "cəld" mənasını verir. Bəziləri isə deyir ki, "wiki" sözü "What I Know Is.." ifadəsinin baş hərfləridir. Mənası "bildiyim qədər" deməkdir.

### 300-ə yaxın dil qrupu arasında Azərbaycan Vikipediyası 52-cidir

Azərbaycanca vikipediya 2004-cü ildən etibarən fəaliyyət göstərir və artıq 140.093 məqalə dərc edib.

Bəs Azərbaycan vikipediyası necə zənginləşdirilir? Bu işlə kimlər məşğuldur? Bizi maraqlandıran bu və ya digər suallara cavab tapmaq üçün Azərbaycan vikipediyasının "qərargah"ı olan AMEA-nın Mərkəzi Elmi Kitabxanasına yollandıq.

Gün ərzində vikipediyanın Azərbaycan bölməsində 60-a yaxın məqalə hazırlanıb yerləşdirildiyini deyən Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının (MEK) Sərbəst elektron resursları şöbəsinin müdiri Elnur Eltürk bildirir ki, iş fəaliyyətlərinin əsası Azərbaycan dilində olan materialları zənginləşdirməkdir.

İşçi heyətinin bütünlüklə vikipediyanın milli versiyasının inkişafı üçün çalışdığını diqqətə çatdıran Elnur Eltürkün sözlərinə görə, Azərbaycan bölməsində fəaliyyət göstərən idarəçilər, istifadəçilər tərəfindən istər azərbaycanca vikipediyada, istərsə də digər dillərdə olan bu resursda ölkəmizlə bağlı maraqlı məqalələr hazırlanır: "Gündəlik olaraq bir çox sahələri əhatə edən məqalələr yazılır, yarımçıq məqalələr redaktə edilir, ingilis-rus dillərindən Azərbaycan dilinə məqalələr tərcümə edilir. Vikipediyanın 300-dən artıq dil qrupu var ki, Azərbaycan bölməsi hazırda məqalələrin sayına görə bu siyahıda 52-ci yerdədir və bu, böyük uğur sayılır. AMEA MEK Vikipediya Metodik Mərkəzinin könüllüləri tərəfindən xaricidilli vikipediyalarda məqalələrin yaradılması prosesi sürətlə davam edir. Onlarla məqalə tərcümə olunaraq vikipediyalara yerləşdirilir".

### İstənilən şəxs vikipediyada məqalə yerləşdirə bilər

Elnur Eltürk qeyd edir ki, Azərbaycan Vikipediyasına öz töhfəsini vermək arzusunda olanlara da təlimlər keçilir. AMEA-nın müxtəlif institutlarının əməkdaşları, ali təhsil müəssisələrinin tələbələri, QHT təşkilatlarının nümayəndələri üçün təlimlər təşkil olunur. Onlar da burada öyrəndiklərini tətbiq edərək maraq dairələrinə uyğun məqalələr hazırlaya bilərlər: "Bu gün Azərbaycan Vikipediyasında böyük işlər görülür. AMEA Mərkəzi Elmi Kitabxanasında vikipediyanın şərtləri və prinsipləri, həmçinin məqalə yaradılması ilə bağlı təlimlər keçilir. 2015-ci ildən etibarən 40-dan çox təlim keçilib. Sonda onlara sertifikatlar verilir. Təlim iştirakçıları sistemli şəkildə məqalələr hazırlayırlar, yarımçıq materialları redaktə edib genişləndirirlər. Fəaliyyətlərini daim izləyirik. İstənilən şəxs vikipediya üçün məqalə hazırlaya bilər. Burada əsas şərt məqalənin ensiklopedik olmasıdır. Əgər məqalə şərtlərə cavab vermirsə, müzakirəyə çıxarılır və səsvermə yolu ilə silinir".

### Mənbə mötəbər olmalıdır

Mərkəzi Elmi Kitabxananın Sərbəst elektron resursları şöbəsinin təlimlər üzrə bölmə rəhbəri Günay Məmmədova isə bildirir ki, məqalə yaradarkən istinad etdikləri əsas mənbə ensiklopediyadır. Bundan başqa, rəsmi qəzet, sayt, kitab, jurnal, akademik kitablardan da mənbə kimi istifadə edilir.

Günay Məmmədova deyir ki, hər şəxs haqqında vikipediyada məqalə yerləşdirilə bilməz. O, müəyyən şərtləri ödəməli və ən əsası, ensiklopedik şəxs olmalıdır: "Ən başlıcası, həmin şəxsin tanınmış olmasına diqqət edirik. Alimdirsə, elmi dərəcəsi, məqalələri, kitabları olmalıdır. Xalq arasında, beynəlxalq aləmdə tanınmış olmalıdır. Onunla bağlı məlumatları toplayarkən sağdırsa, lazımi məlumatları özündən soruşuruq, həyatda deyilsə, kitablardan, haqqında çıxan materiallardan, bəzən gərəkdirsə, ailə üzvlərindən toplayırıq. Məqaləni yerləşdirdikdən sonra onun fəaliyyətini izləməliyik ki, yeni bir məlumat olduğu halda məqaləyə düzəliş edək. Dünyasını dəyişərsə, ölümü barədə informasiya yayılarsa, dəqiqləşdirib biz də məqaləyə əlavə edirik".

### Məqalələrə necə nəzarət edilir?

Bəzən məqalələrə qərəzli müdaxilələr edildiyini vurğulayan Günay Məmmədova deyir ki, belə halda 16 nəfərdən ibarət idarə heyəti tərəfindən məsələ müzakirəyə çıxarılır, aydınlaşdırılır. Düzəlişin istinad edildiyi doğru mənbə tapılarsa, redaktə saxlanılır, əks halda isə düzəliş silinir. Əgər vandalizm törədilibsə, o halda həmin material mühafizəyə alınır. Yəni bundan sonra ancaq məqalənin müəllifi və idarə heyətinin üzvləri həmin məqaləyə daxil olub redaktə edə bilər.

Vikipediyanın prinsiplərini sadalayan Günay Məmmədova deyir ki, burada məqalə hazırlayarkən obyektiv olmaq lazımdır. Digər prinsip isə məqalənin vikiləşdirilməsidir. Həmçinin istinadlara diqqət yetirilməlidir.

### Mövzular maraq dairəsinə uyğun seçilir

Azərbaycanın Milli qəhrəmanları haqqında ingilisdilli vikipediyada məqalələrin yaradılması prosesi də davam edir. Bu işdə Sərbəst elektron resursları şöbəsinin əməkdaşı olan Jalə Babazadənin böyük töhfəsi var.

İş prosesi, gördüyü işlə bağlı məlumat verən Jalə indiyə qədər ingilisdilli vikipediyada Əliyar Əliyev, Səfiyar Behbudov, Şikar Şikarov, Raquf Orucov, Fərid Əhmədov və digər azərbaycanlı qəhrəmanlar haqda 37 məqalə hazırlayıb. Onun sözlərinə görə, bu fəaliyyət artıq daha intensivliklə davam edəcək.

Jalə deyir ki, bəzən ermənilər Dağlıq Qarabağ münaqişəsinə dair ingilisdilli vikipediyada yerləşdirilən məqalələrə müdaxilə də edirlər.

### "Yanlış məlumatların qarşısını almağa çalışırıq"

Gülarə Səbzəliyeva isə əsasən ədəbiyyat sahəsində məqalələr hazırlayır. Mövzuları maraq dairəsinə uyğun seçir. Hazırda Azərbaycanda XX əsr repressiya qurbanı olan şəxslər haqda məqalələrin redaktəsi ilə məşğuldur. Fərqli mənbələrdən istifadə edərək mövcud məqalələri daha da dolğun vəziyyətə gətirir. Gülarə deyir ki, vikipediya nə qədər açıq ensiklopediya olsa da, müəyyən qaydaları var və o qaydalar pozulduğu halda xəbərdarlıq edilir. Xəbərdarlığa əməl edilmədikdə isə həmin istifadəçi sistemdən çıxarılıb bloka atılır: "Məqsədimiz bizi oxuyanların düzgün məlumatlanmasıdır. Yanlış məlumatların qarşısını almağa çalışırıq. İşimiz buna görə daha məsuliyyətlidir".

### Məqalə yazarkən bir neçə kitabdan mənbə kimi istifadə edilir

Təlimçi Sura Məmmədova məqalələri redaktə etməklə məşğuldur. Dediyinə görə, işinin maraqlı tərəfi odur ki, həm özü öyrənir, həm də oxucuları məlumatlandırır. Məqalə hazırlayarkən bir neçə kitabdan mənbə kimi istifadə edir: "Yaxşı məqalə hazırlanması bir neçə gün çəkir. Mənbələrin əldə olunması, onu araşdırmaq, istifadə etmək çox vaxt tələb edir. Daha çox filologiya, siyasətçilər, aktyorlar haqqında məqalələr yazıram. Geniş məqalə olanda bir ay ərzində 30-35, kiçik ölçüdə olanda isə 1000-ə qədər məqalə hazırlayıram".

### Azərbaycana dair məqalələr müxtəlif dillərə tərcümə edilir

Bakı Dövlət Universitetinin Hüquq fakültəsi üzrə magistr təhsili alan Firuzə Nəsibli elə öz sahəsinə uyğun da məqalələr hazırlamaqla məşğuldur. Azərbaycandilli vikipediyada hüquqla bağlı məqalələrin məhdud olduğunu deyən Firuzə təxminən 100-ə yaxın məqalə hazırlayıb.

Səbinə Abizadə və Nuray Tanrıverdiyeva da Azərbaycanı rus və ingilisdilli vikipediyalarda təbliğ etməyə çalışır. Səbinə əsasən tarix, coğrafiya mövzularında məqalələr yazır. Nuray isə Azərbaycana dair məqalələri rusdilli vikipediyada yerləşdirir. Bununla yanaşı, yüzlərlə məqalədə dəyişikliklər edib zənginləşdirməklə məşğuldur.

Mahirə Niftullayeva isə Azərbaycan və dünya tarixinə dair müxtəlif məqalələr hazırlayıb. Hazırda isə Macarıstan tarixi ilə bağlı məqalələrin həm yaradılması, həm də redaktəsi ilə məşğuldur. Fəaliyyəti dövründə tarixi şəxsiyyətlər, tarixi hadisələr, dövlət adamları, o cümlədən incəsənət xadimləri ilə bağlı 30-a yaxın məqalə hazırlayıb. Məqsədi Macarıstanla bağlı məqalələrin sayını daha da artırmaqdır.

Qulamhüseyn Məmmədov işə qəbul olunduğu müddətdən indiyədək 600-ə yaxın tarixi məqalə yazıb, redaktə edib. Xüsusən Azərbaycan tarixinə dair məqalələr yaradıb. Dediyinə görə, təkcə Azərbaycan Xalq Cümhuriyyəti mövzusunda 150 məqaləsi var. 10 məqaləni isə əsaslı formada redaktə edib. Bundan başqa, Qarabağın qədim dövr tarixi ilə bağlı müxtəlif məqalələr hazırlamaqla da məşğuldur.

Vikipediya artıq gündəlik müraciət etdiyimiz, məlumat aldığımız, biliyimizi zənginləşdirdiyimiz qlobal şəbəkəyə çevrilib. Bu ümumdünya informasiya bazasının təkmilləşdirilməsində, orada Azərbaycanın mövqeyinin möhkəmləndirilməsində isə hamımız iştirak edə bilərik. Vikipediya bu imkanı bizə verir.

***Fərizə ƏHMƏDOVA,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# "Azərbaycanın İntellektual Birİncisi" layihəsinin icrası başa çatıb

"İrəli" İctimai Birliyinin Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə reallaşdırdığı "Azərbaycan İntellektual Birİncisi" layihəsinin üçüncü mövsümünə yekun vurulub. AZƏRTAC xəbər verir ki, layihənin sonuncu günündə - dekabrın 8-də ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunan final mərhələsi keçirilib.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Gənclər və İdman Nazirliyinin gənclər təşkilatları ilə iş sektorunun müdiri Fuad Babayev, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri, Milli Məclisin deputatı Şahin İsmayılov tədbirdə çıxış edərək belə layihələrin həyata keçirilməsinin gənclərin inkişafında əhəmiyyətindən danışıblar. Qeyd edilib ki, gənclərin intellektual oyunlarda iştirakı onların zehni inkişafına, bilik və bacarıqlarının artırılmasına böyük töhfə verir.

İctimai Birliyin sədri Mirhəsən Seyidov "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramında gənclərin asudə vaxtının səmərəli təşkili üçün intellektual və kompüter oyunları üzrə yerli və beynəlxalq çempionatların keçirilməsinin əksini tapdığını vurğulayıb. "Azərbaycan İntellektual Birİncisi" layihəsinin Dövlət Proqramına uyğun olaraq həyata keçirildiyini vurğulayan M.Seyidov diqqətə çatdırıb ki, ölkəmizin bütün regionlarını əhatə edən layihənin məqsədi gənclərimizin maarifləndirilməsi və onların intellektual potensiallarının qiymətləndirilməsi olub.

Sonra layihə çərçivəsində görülən işlər barədə tədbir iştirakçılarına məlumat verilib. Bildirilib ki, gənclərin maarifləndirilməsinə istiqamətlənən layihə çərçivəsində dörd intellektual oyun - "Xəmsə", "Nə? Harada? Nə zaman?", "Axtar tap", "Vətəni tanı" üzrə 11 regionda keçirilən yarışlarda Naxçıvan Muxtar Respublikası da daxil olmaqla 70 rayondan 1500-ə yaxın gənc iştirak edib. Layihə iki mərhələdən ibarət olub. Əvvəlcə hər iqtisadi rayon üzrə komandaların zona çempionatı, sonra isə final yarışları keçirilib. Bu mərhələdə zona turnirlərinin qalibləri mübarizə aparıblar.

Layihənin yekununda "Vətəni tanı" oyunu üzrə Xətai, "Axtar tap" oyununun nəticələrinə görə Naxçıvan gəncləri qalib adını qazanıblar. "Nə, harada, nə zaman?" oyunu üzrə Abşeron, "Xəmsə" oyunu üzrə isə Abşeron rayonunun gənc intellektualları qalib elan olunublar.

Qalib komandalar medallar, şəhadətnamələr və hədiyyələrlə təltif ediliblər.

# Əməkdaşımız dünya üçüncüsü oldu

## Milli komandamız Macarıstandan üç medalla qayıtdı





**Bu günlərdə Macarıstanın paytaxtı Budapeştdə yeni yaradılmış Birləşmiş Dünya İdman Kempo Federasiyasının (UWSKF) təşkilatçılığı ilə Zen Bu Kan Kempo üzrə birinci dünya çempionatı keçirilmişdir.**

On beş ölkənin 600-ə yaxın idmançısının iştirak etdiyi yarışda ölkəmizi Beynəlxalq Kempo Federasiyasının (IKF) Azərbaycandakı rəsmi nümayəndəsi olan "Toğrul" klubunun 7 kempoçusu yığma komanda şəklində təmsil etmişdir.

Onlardan üçü vətənə medalla qayıtmışdır. Belə ki, semi kontakt versiyası üzrə Cəmşid Rüstəmov bütün rəqiblərinə qalib gələrək qızıl medala layiq görülmüşdür. Sadiq Dürüstkari bürünc medala yiyələnmişdir. "Azərbaycan" qəzetinin əməkdaşı Şakir Alıyev full kontakt versiyası üzrə dünya çempionatının üçüncüsü olmuşdur. Xatırladaq ki, Şakir Alıyev ötən ay Rumıniyada keçirilən Avropa çempionatında da bürünc medal qazanmışdır.

Yarışlardan sonra "Toğrul" idman klubunun sədri Rauf İbrahimov bildirmişdir ki, çempionat ərəfəsində keçirilən iclasda fəaliyyət göstərən bütün Kempo təşkilatlarının (ICKKF, UWSKF, WAC) Beynəlxalq Kempo Federasiyasının (IKF) tərkib hissəsi kimi fəaliyyət göstərəcəyi barədə qərar qəbul olunmuşdur. Azərbaycanda artıq 10 ilə yaxındır ki, "Toğrul" idman klubu fəaliyyət göstərir. Klubun rəhbəri Rauf İbrahimov Beynəlxalq Kempo Federasiyasının (IKF) Azərbaycan üzrə rəsmi nümayəndəsi olduğu üçün öz vəzifəsində qalır. O, idmançılarımızın mötəbər yarışda çıxışına dəstək verdiyinə görə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Şərq Döyüş Növləri Federasiyaları Şurasına minnətdarlığını bildirmişdir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

## Qurban Qurbanov Azərbaycan milli komandası ilə yollarını ayırıb

Qurban Qurbanov futbol üzrə Azərbaycan milli komandası ilə yollarını ayırıb.

AZƏRTAC xəbər verir ki, bu barədə o, özü məlumat verib.

Q.Qurbanov bildirib ki, aşağı yaş qrupları üzrə bütün komandaların baş məşqçiləri də istefaya gedəcək. Biz sıfırdan başlamalıyıq. Futbolumuzda çatışmayan cəhət çoxdur. Biz 6 illik plan verməmişdik. Bu işləri hissə-hissə görməliyik. Ola bilsin, üzərimdən böyük yük qalxdı. Mən milli ilə klubları bir-birindən ayırmadım. Öz işimi vicdanla gördüm. Rahatam.

"Yaxşı baş məşqçilərimiz var. Bu posta kimin təyin olunmasına ən yaxşı qərarı AFFA verəcək. Milli ilə vidalaşacağam. Qarşılıqlı razılıq əsasında qərar qəbul olunub. Gördülər ki, iki yerdə çalışmaq çətindir. Olduğum müddətdə hər şeyi düz etməyə çalışdım. Nə vaxtsa yığmaya qayıdacağımı bilmirəm", - deyə Q.Qurbanov əlavə edib.

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## Merkelin varisi seçildi



Hamburqda keçirilmiş qurultayda Anneqret Kramp-Karrenbauer Xristian-Demokrat İttifaqının (XDİ) yeni sədri seçilmişdir. Qurultayın 999 nümayəndəsindən 517-si onun lehinə səs vermişdir. Kramp-Karrenbauerin rəqibi Fridrix Merts 482 səs toplamışdır. XDİ-nin yeni başçısı səsvermənin ikinci turunun nəticələrinə görə seçilmişdir.

Partiyaya 18 il rəhbərlik etmiş Anqela Merkel bu dəfə namizədliyini irəli sürməmişdi. Eyni zamanda o, hakimiyyət müddəti bitənədək və 2021-ci ildə keçiriləcək növbəti parlament seçkilərinədək Almaniyanın Kansleri vəzifəsində qalmaq niyyətindədir.

Səsvermədən öncə qurultayın nümayəndələri qarşısında çıxış edən Kramp-Karrenbauer XDİ-ni Avropa Təhlükəsizlik Şurasının və Avropa ordusunun yaradılması ideyasını dəstəkləməyə çağırmışdır. O bildirmişdir ki, təhlükəsizlik sahəsində ümumi maraqları nəzərə almaqla yanaşı, onların reallaşdırılmasına da nail olmaq lazımdır. Siyasətçi partiyanı adamları heyrətləndirə biləcək ideyalar irəli sürməyə çağırmışdır.

## Marsdan səs gəldi



Marsa enmiş ABŞ-ın "Mars İnSight" avtomatik planetlərarası stansiyası ilk dəfə Marsdakı küləyin səsini yazıb Yerə göndərə bilmişdir. Bu barədə NASA-nın başçısı Cim Braydenstayn məlumat vermişdir.

"Adamlar heç vaxt Marsda külək səsini eşitməmişlər! "Mars İnSight"in Marsda yazdığı külək səsinə qulaq asın", - deyə o, NASA-nın saytında yazmışdır.

NASA-dan bildirmişlər ki, dekabrın 1-də stansiyanın qurğuları küləyin səsini yazmışdır. Onun sürəti saniyədə 5-7 metr təşkil edir. Külək şimal-qərbdən cənub-şərqə əsirmiş.

"Missiyamızın əsas vəzifələrindən biri Marsda hərəkət parametrlərini ölçməkdir və şübhəsiz, səs dalğalarının yaratdığı hərəkət də buna aiddir", - deyə Marsdakı tədqiqatların elmi proqramlarının rəhbəri Brüs Banerdt qeyd etmişdir.

Xatırladaq ki, "Mars İnSight" stansiyası mayın 5-də ABŞ hərbi hava qüvvələrinin Kaliforniya ştatındakı Vanderberq bazasından start götürmüşdür. O, ötən həftə Qırmızı planetə enmişdir.

## Yaponlar əmək mühacirlərinə təslim oldular



Yaponiya parlamenti ölkədə əcnəbi fəhlələrdən istifadə olunmasına qadağanın ləğvi barədə qərar qəbul etmişdir. Bu barədə "Japan Times" qəzeti xəbər verir.

Yaponiya növbəti 5 il ərzində xarici dövlətlərin 340 mindən çox vətəndaşını cəlb etmək niyyətindədir. Yapon dilini bilən əcnəbilərə ailəsini ölkəyə gətirməmək şərtilə beşillik viza veriləcək. Ən ixtisaslı mühacirlər hətta daimi yaşamaq hüququ alacaq və öz ailələrini dəvət edə biləcəklər.

Hökumət bu addımı yerli sakinlərin doldura bilmədiyi fəhlə yerlərinin sürətlə artması ilə əlaqədar qəbul etmişdir. Yaponların orta ömrünün daim artdığı, doğumun isə aşağı düşdüyü nəzərə alınmışdır. 65 yaşdan yuxarı adamların payı 28 faizədək artmışdır. Bu, dünyada ən yüksək göstəricilərdən biridir. Ölkədə doğum səviyyəsi hər qadın üçün 1,4 uşağa düşmüşdür, halbuki əhalinin artması üçün bu göstərici 2,1-dək artmalıdır. Bu səbəbdən hər il Yaponiya əhalisinin sayı 500 min nəfər azalır.

## Çexiyada Rusiya və Çin casus şəbəkəsi aşkarlanıb



Çexiya Təhlükəsizlik və İnformasiya Xidməti (BİS) bildirmişdir ki, ötən 5 il ərzində onlarla rusiyalı və çinli agentlərin fəaliyyəti aşkar edilmişdir. BİS-in başçısı Mixal Koudelkanın dediyinə görə, onun əməkdaşları Çexiyada Rusiyanın fəal kəşfiyyat xidmətinin nəzarət etdiyi casus şəbəkəsinin işinin qarşısını almışdır.

Beləliklə, Koudelka ölkə Prezidenti, Rusiya və Çin yönümlü siyasətçi hesab olunan Miloş Zemanın tənqidinə reaksiya vermişdir.

Xatırladaq ki, BİS-in bu həftə dərc olunmuş hesabatı ilə əlaqədar Zeman kəşfiyyatı boşboğazlıqda, idarənin əməkdaşlarını isə bir nəfər də olsun rusiyalı və ya çinli agent ifşa edə bilməməkdə ittiham etmişdi.

BİS-in məlumatında deyilir ki, Praqadakı Rusiya səfirliyində diplomat pərdəsi altında bir sıra casuslar fəaliyyət göstərmişlər. Öz növbəsində çinli agentlər sənaye casusluğu sahəsində və intellektual məhsulu izləyərkən "praktiki olaraq məhdudiyyətsiz" resurslara malik olmuşlar.

## Sanksiyalara baxmayaraq, ABŞ-ın İrana ixracının həcmi yeddi dəfə artıb

ABŞ sanksiyalar tətbiq edərək İran ilə digər dövlətlərin iqtisadi əlaqələrini ciddi-cəhdlə kəsməyə çalışdığı halda, özü İran ilə ticarət əlaqələrini davam etdirir. Cari ildə ABŞ-ın İrana ixracı 7 dəfə artıb.

Bu barədə ABŞ Statistika Bürosunun hesabatında deyilir. May ayından sanksiyalar bərpa edildikdən sonra ABŞ-ın İrana ixracının həcmi 109,2 milyon dollara çatıb. Ötən ilin müvafiq dövründə isə ABŞ-ın İrana ixracının həcmi 16,1 milyon dollar həcmində olmuşdu. Hesabatda qeyd olunub ki, ötən il İrandan ABŞ-a ixracın həcmi 3,2 milyon dollar olmuşdursa, cari ildə bu rəqəm sıfıra bərabərdir.

Analitiklər bildirirlər ki, ABŞ İrana qarşı sanksiyalara yalnız öz prizmasından baxır. Rəsmi Vaşinqton sanksiyalar tətbiq etməklə İranda qıtlığın yaranmasına nail olub və fürsətdən istifadə edərək öz mallarını İrana satıb qazanc əldə edir. Bu, paradoksdur.

## İtaliyada konsertdə 6 nəfər həlak oldu



İtaliyanın Ankona vilayətində rep konsertində baş vermiş basabas nəticəsində 6 nəfər həlak olmuş, 120 nəfərə yaxın adam zərər çəkmişdir. Bu barədə yerli KİV xəbər verir.

Hadisə Korinaldo şəhərindəki "Lanterna azzurra" diskotekasında yerli hip-pop ifaçısı Sfer Ebbastın çıxışı zamanı baş vermişdir. Şahidlərin dediklərinə görə, naməlum şəxs havada "yandırıcı qaz" yaymışdır.

Adamlar zalı tərk etmək istəsələr də, klubun ehtiyat çıxışı bağlı olmuşdur. Konsertdə minə yaxın tamaşaçının olduğu bildirilir.

Zərərçəkənlərdən 10-nun vəziyyəti ağırdır.

# Ermənistan parlament seçkilərinə total saxtakarlıq və repressiyalarla gedir

## Bu seçkilər də, əvvəlkilər kimi, siyasi şou olacaq

*Əvvəli 1-ci səh.*

Erməni maqnat Hagik Sarukyanın rəhbərlik etdiyi "Çiçəklənən Ermənistan" partiyası da seçkiyə qatılıb. Yeni yaradılmış "Sasna Tsrer" Partiyasının siyahısının başında Varuzhan Avetisyan durur. O, 2016-cı ilin iyulunda Yerevanda polis şöbəsini iki həftə ərzində tutmuş silahlı qruplaşmanın liderlərindən biridir. Onda qruplaşma hökumətə siyasi tələblər irəli sürmüşdü. Avetisyan və qruplaşmanın digər üzvləri o zaman saxlandı, lakin sonradan buraxıldılar. Ölkənin yeni administrasiyası isə onlara amnistiya verdi. Qruplaşma silahlı mübarizəni dayandırmağı vəd edir, siyasi prosesə qoşulacağını deyir.

Sənədlərini təqdim etmiş digər partiyalar deputat, Paşinyanın keçmiş müttəfiqi Edmon Marukyanın rəhbərlik etdiyi "Parlaq Ermənistan", "Daşnaktsütyun", "Orinats Yerkir", "Hanrapetutyun" və Azad Demokratlar partiyalarının "Biz" alyansıdır.

Az tanınan daha üç partiya - Xristian-Demokratik Yeni Yaranış Partiyası, Milli Proqres Partiyası və Vətəndaşların Qərarı Sosial Demokratik Partiya da seçkilərə qoşulub. Amma onların parlamentə buraxılması inandırıcı görünmür.

### "Paşinyan özünü Hitlerə oxşatmağa çalışır"

Əsas məsələ isə Paşinyanın rəqiblərini güc yolu ilə sıradan çıxarmasıdır. Bu fonda parlamentin vitse-spikeri Eduard Şarmazanov Paşinyanda faşizmin əlamətlərini gördüyünü açıqlayıb. Onun sözlərinə görə, bu şəxs Ermənistanı faşist Almaniyasına çevirmək istəyir: "Paşinyan nifrət təbliğatı ilə məşğuldur. O, Ermənistanı 1930-cu illərin Almaniyasına bənzətməyə, özü isə Hitlerə oxşamağa çalışır. Baş nazir səlahiyyətlərini icra edən Nikol Paşinyan siyasi rəqiblərini güc strukturlarının hesabına qorxudur".

### "Hakimiyyət seçki günü Respublika Partiyasının qərargahına basqın edəcək"

Belə bir vaxtda Ermənistanın "168 saat" qəzeti etibarlı mənbələrə istinadən yazır ki, parlament seçkiləri günündə hakimiyyət Serj Sarkisyanın sədrlik etdiyi Respublika Partiyasının qərargahına basqın edəcək. Qeyd olunur ki, Nikol Paşinyanın əmrlərini icra edən güc strukturlarının respublikaçıların qərargahına qəfil basqını üçün əsas var və bu da seçkilərdə səslərin rüşvətlə alınacağına dair polisə edilən "zənglər"dir. Qəzet yazır: "Ölkədəki hakimiyyətin bu addımının başlıca məqsədi seçkiqabağı antitəbliğat, qorxu atmosferinin gücləndirilməsi və müxalif partiyaların qərargahlarında işlərin iflic edilməsidir. Mənbəmiz istisna etməyib ki, qərargahla yanaşı, respublikaçıların Melik Aramyan - 2 ünvanında yerləşən mərkəzi ofisi də basqın hədəfinə çevriləcək".

O da qeyd olunur ki, əgər konkret "zənglər" və "şikayətlər" varsa, polisin basqın üçün məhz seçki gününü gözləməsi, bütün bunların sadəcə Paşinyanın ucuz şousu olduğunu və ölkənin əsas müxalif partiyasının qələbəsindən ehtiyatlandığını sübut edir.

### Paşinyan siyasi terroru gücləndirir

Ümumiyyətlə, Nikol Paşinyanın göstərişi əsasında ölkənin güc strukturları növbədənkənar parlament seçkilərində qələbə şansı yüksək olan rəqib partiyalara qarşı təhdid metoduna keçiblər. Elə buna müvafiq olaraq Ermənistanın Baş Prokurorluğu Nikol Paşinyanın göstərişi ilə sabiq ekologiya nazirini həbs etməyə hazırlaşır.

Hazırda parlamentin üzvü olan respublikaçı Aram Arutunyana 14 milyon dollar dəyərində rüşvət almaq və qanunsuz yolla əldə edilən gəlirlərin leqallaşdırılması üzrə ittiham irəli sürülüb. Bildirilir ki, 2008-ci ildə Ermənistanın ekologiya naziri olmuş Arutunyan 10 əlvan metal yatağında geoloji kəşfiyyat işlərinin aparılması və işlənməsi üçün lisenziya əldə olunması qarşılığında 14 milyon dollar həcmində rüşvət tələb edib və alıb. Həmin yataqlar Sünik, Qeqarkunik, Lori və Kotay vilayətlərində yerləşir. 6 milyon dollar Arutunyana vasitəçilər tərəfindən birbaşa, yerdə qalan 8 milyon isə bank vasitəsilə köçürülmə yolu ilə ödənilib. İstintaqın araşdırmasına görə, sabiq nazir xarici ölkələrdə digər şəxslərin adına bank hesabları açıb. Arutunyana qarşı rüşvət almaq və gəlirlərin leqallaşdırılması maddələri üzrə istintaqa başlamaq üçün kifayət qədər əsaslar var. Bu maddələr üzrə ittiham olunan şəxs 12 ilə qədər azadlıqdan məhrum edilə bilər.

Ermənistanın baş prokuroru Artur Davtyan cinayət işinin başlanması və Arutunyanın həbs edilməsi üçün parlament sədrinə müraciət edildiyini bildirib. Onun deputat mandatından məhrum ediləcəyi gözlənilir. Arutunyan isə bütün bunları siyasi təzyiq adlandırır.

### Paşinyanın seçkiqabağı ən böyük sürprizi

Ermənistanda yeni iqtidarın sələflərinə qarşı ən sərt üsullarla hücuma keçəcəyinə dair verilən proqnozlar özünü doğruldur. Seçkilərə bir gün qalmış ən böyük sürpriz isə Ermənistanın keçmiş prezidenti Robert Koçaryanın məhkəmənin qərarı ilə həbs edilməsidir. Yerevandakı "Kentron" həbsxanasında saxlanılan sabiq prezident konstitusiya quruluşunu dəyişmək üçün başqa şəxslərlə qabaqcadan əlbir olmaqda ittiham olunur. Hazırda belə fikirlər səslənir ki, Robert Koçaryanın və digərlərinin həbsi əslində Yerevan klanının "Qarabağ klanı" üzərində apardığı haqq-hesabdır.

Xatırladaq ki, iyulun 28-də Yerevan məhkəməsi 2008-ci ilin mart hadisələrində törədilən cinayətə görə Koçaryan barəsində iki ay müddətinə həbs qətimkan tədbiri seçilməsinə dair qərar qəbul etmişdi. Sonradan apelyasiya məhkəməsi bu qərarı ləğv etmiş və səbəb kimi Koçaryanın "toxunulmaz" şəxs olduğunu göstərmişdi.

### Seçicilər təhdid olunur

Respublika Partiyasının üzvü Arpine Ovannisyan da eyni mövqedən çıxış edir. O bildirib ki, Paşinyanın tərəfdarları tərəfindən özünə və ailə üzvlərinin həyatına qarşı hədələr olmasına və bununla bağlı şikayət etməsinə baxmayaraq, nədənsə polis müvəqqəti hökumətə müxalif olanların ünvanına təhdidlərlə bağlı cinayət işi açmır: "Nəhayət ki, mən polisin niyə belə etdiyini anladım. Çünki onların başı özlərinin ən yüksək səviyyədə hədələr etməsinə qarışıb. Bizə siqnallar daxil olur ki, Respublika Partiyasının əməkdaşlarını, seçki qərargahının işçilərini və onların yaxınlarını təhdid edirlər ki, əgər respublikaçılar konkret seçki məntəqələrində 10 faizdən çox səs toplasalar, onda ciddi problemləri olacaq.

Hətta bəzilərini məcbur edirlər ki, səsvermə günündək ölkəni müvəqqəti tərk etsinlər. Yeri gəlmişkən dediklərimi asanlıqla sübut etmək olar. Bütün silahdaşlarımızı qorxmamağa, birləşərək seçkilərdə iştiraka səsləyirəm. Bununla onlar bu hakimiyyətin bizi üzləşdirdikləri təhdidlərdən agah olduqlarını göstərəcəklər".

### Seçicilərin sayı 13,5 min nəfər ixtisar olunub

Erməni politoloq David Stepanyan isə qeyd edir ki, parlament seçkiləri ərəfəsində Ermənistan polisi seçici siyahılarına ciddi dəyişikliklər edib. Nəticədə 2017-ci illə müqayisədə Ermənistanda seçicilərin sayı 13,5 min nəfər ixtisar olunub. Bu isə olduqca böyük rəqəmdir. Polisin müdaxiləsindən sonra hazırda Ermənistanda seçicilərin ümumi sayı 2 milyon 574 min 916 nəfərə enib. Erməni mediası yazır ki, polisin ixtisara saldığı seçicilər daha çox əvvəllər respublikaçıların daimi qələbə çaldıqları dairələrdə qeydə alınıblar.

Bütün bunlar Paşinyan hakimiyyətinin heç də demokratik seçki keçirmək niyyətində olmadığını göstərir və bu halda Ermənistanda vəziyyətin daha da gərginləşməsi gözlənilir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Binəqədi Rayon Məhkəməsinin sədri Araz Kazımova atası

**NURƏDDİN KAZIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev Binəqədi Rayon Məhkəməsinin sədri Araz Kazımova atası

**NURƏDDİN KAZIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8412
Sifariş 3623